

Mirşahin Ağayev deputat Günay Ağamalının müdafiəsinə qalxdı

Səh: 2-də



"Heydər Əliyevin qurduğu çip zavodundan əsər-əlamət belə qalmayıb"

Səh: 6-dı



Bakı Metropolitenin rəisi Vüsal Aslanovun bu çıxışı aləmi qarışdırdı

Səh: 12-də

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№05-06 (2402) * 26 may 2026-cı il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Azərbaycan Kinematoqrafçılar İttifaqı üzvlərindən və görkəmli kino xadimlərindən etiraz bəyanatı



Bax: səh.3

Bax səh.2

## "Günay Ağamalı, xəbəriniz yoxdurmu ki, millətin vəkili millətin mənafeyinə xidmət etməlidir?!"



"Hökumətə tapşırıram ki, vəsait tapılsın"

Bax səhifə 2

Uşaqpulu qadınların uşaq doğmasında tənbəllik yarada bilər? ✓2

Erməni müstəntiq Ruhulla Axundovu necə şərləyirdi? ✓5

Dövlət İmtahan Mərkəzindən daha bir şikayət ✓6

"Uğur 777 estetik mərkəz"in işi məhkəmədə-görün nələr var imiş! ✓7

"Yeni Yasamal" MTK sədrinin fırıldaqları sərhəd tanımır ✓8-9

"Azerbaijan Kids Best Model 2026" – müsabiqəsinin qalibləri taclandırıldı ✓14

Bax səhifə 2



Bəzi sığorta şirkətlərinin qanunsuz fəaliyyəti barədə həmişə yazılıb, deyilib...

Bax səhifə 11



Yasamalda əlavə metro stansiyası tikintisinə etiraz edən QHT rəhbərindən yeni etiraz

## Bakı-Tbilisi qatarı bu gün yola çıxır: qiymətlər isə əlçatan deyil! ✓5




Yasamal RİH-nin məmurlari tanınmış vəkilin evini zorla sökür! ✓4



London məhkəməsi Deputat Cavanşir Feyziyevin bu mülklərini müsadirə etdi ✓7



# "Hökumətə tapşırıram ki, vəsait tapılsın"

**"Hökumətə tapşırıram ki, vəsait tapılsın və özəl sektorla da müxtəlif qurumlar, təbii ki, Kənd Təsərrüfatı Nazirliyi, Hökumət, ondan sonra Prezident Administrasiyası, İqtisadiyyat Nazirliyi, digər qurumlar fəal işləməlidirlər".**

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bildirib.

**"Təxmini hesablamalar aparılıb. Əlbəttə ki, indidən bunu demək çox çətindir. Amma təxmini hesablamalar göstərir ki, dövlət xətti ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait lazım olacaq, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox olacaq. Çox böyük rəqəmdir. Xüsusilə nəzərə alsaq ki, cəmi dörd il yarım ərzində bunu biz həyata keçirməliyik, ona görə proqram qəbul ediləndən dərhal sonra biz işlərə başlamalıyıq"**, - dövlət başçısı vurğulayıb.

# Əlillik dərəcəsi almaq üçün illərlə çaba göstərənlər, müddət konkretləşib – təfərrüatları deputat açıqlayıb

**Nazirlər Kabineti "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydasını" təsdiq, "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda isə dəyişiklik edib.**



Yeni sənədlə istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası təsdiq olunub.

Yeni qaydalar əlillik dərəcələrinin alınmasını asanlaşdıracaqmı?

Sualı iqtisadçı-deputat Vüqar Bayramov belə cavablandırıb:

"Qaydalar ilə peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilkin olaraq müəyyən edilən zaman xəstəlik və ya zədə, habelə zədə ilə əlaqədar çatışmazlığın səbəb əlaqəsini təsdiq edən sənədlərin siyahısı da konkretləşdirilib.

Eyni zamanda, "peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi (faizlə)" ilə orqanizmin funksiyalarının pozulması faizinin peşələr üzrə təzahür dərəcəsi və sığorta olunanın yaşına uyğun olaraq peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi müəyyən edilib və bunun üçün xüsusi düstur da təsdiq olunub.

Əlilliyin müəyyənləşdirilməsi ilə bağlı müddət də konkretləşdirilib. Belə ki, komissiya peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirilmənin aparıldığı gün, əlavə araşdırma tələb olunduğu hallarda, həmin gündən sonra 5 iş günü müddətində qərar qəbul edərək protokolla rəsmiləşdirməlidir. Kağız daşıyıcıda qəbul edilmiş qərar 3 iş günü ərzində MEİS-in "Əlillik" altsisteminə daxil edilmədən sığortalıya təqdim edilməlidir. Eyni zamanda, qərarın altsisteminə daxil edilməsi də nəzərdə tutulur. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi məqsədilə qiymətləndirmə aparılan zaman orqanizmin funksiyalarının 30 faizə qədər və bu göstəricidən daha çox pozulması halları fərqli meyarlar ilə aparılır.

Bütövlükdə, yeni sənəd istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi qaydalarını müəyyən edir. Əlillik təyinatının elektronlaşdırılmasının dərinləşdirilməsi və xüsusən də süni intellektdən daha yaxından istifadə olunması da prioritet olaraq qalmaqdadır".

**Y. Məmmədli**

# Bəzi sığorta şirkətlərinin qanunsuz fəaliyyəti barədə həmişə yazılıb, deyilib...

**İndi məlum olur ki, bəzi icbari sığorta şirkətləri talançılıqla və qanunsuz fəaliyyətlə məşğuldur. Tanınmış vəkil Elçin Sadıqov bu barədə yazaraq başına gələnlərdən bəhs edib.**



Sitat: "...İnsanların adına saxta qəza hadisələri yazıb, onlardan əlavə sığorta haqqı alırlar. Belə ki, heç vaxt adıma qəza olmadığı halda 26.11.2025-ci il tarixdə adıma qəza yazıblar. Özü də ki, guya həmin qəzanı 90ZT888 dövlət qeydiyyat nişanlı avtomobillə etmişəm. Halbuki, 2025-ci ilin iyun ayında həmin avtomobil satılmış və nömrə BYDPİ-nin arxivinə verilmişdir. Yəni, 26 noyabr 2026-ci il tarixdə 90ZT888 dövlət qeydiyyat nişanlı avtomobil ümumiyyətlə, mövcud olmamışdır. Bu gün, prentenziya yazdım, həll edilməsə məhkəməyə müraciət edəcəm...".

**Səbuhi**




# "Günay Ağamalı, xəbəriniz yoxdurmu ki, millətin vəkili millətin mənafeyinə xidmət etməlidir?!"

**...Heç kim anasının qarnında öyrənmir, gör-götür dünyasıdır... Su girdi qaba, oldu içməli. Şans gətirib, atanın dəstəyilə, hər nə vasitə ilə olub, fərqi yoxdur, artıq o kürsünü zəbt etmisiniz.**

Zəhmət çəkin özünüzə yox, heç olmasa o oturduğunuz kürsüyə hörmət edin. Günay Ağamalı, xəbəriniz yoxdurmu ki, millətin vəkili millətin mənafeyinə xidmət etməlidir. Sizi dırnaqarası seçən o caamaata necə uşaq pulunu çox görürsünüz? Nə qədər uşaq pulu veriləcək ki, valideyn işləməyəcək? Unutdunuzmu, Qarabağ uşaq pulunu çox gördüyünüz o "uşaqların" qəhrəmanlığı ilə işğaldan azad olundu. Əminəm ki, siz bunu biləərəkdən yox, məhz bilməyərəkdən, səbatsızlıqdan söyləmisiniz. Hər zaman olduğu kimi! Amma ayıbdır, bir millət vəkili nə qədər şəxsi məsələsiylə, savadsız, qıcıqlandırıcı, millətə qarşı yönəlmiş çıxışlarla gündəmə gələr?

Bəzən insan oturduğu kürsünü, bəzən də kürsü onda əyləşən insanı şərəfləndirir. Bunun heç biri olmayanda o zaman ya kürsüdən imtina edərlər, ya da o kürsüdən əyləşəni zorla salarlar...

Nəhayət, İnsan öncə öz üzərində işləyib özünü dəyişməlidir. Plastik əməliyyatla burnu, dodağını yox, düşüncəsini, beynini, dünya görüşünü dəyişməsək o "gözəllik" heç nəyə yaramayacaq...

**Mətanət AĞAMİRLİ,**
**tele-jurnalist, QHT rəhbəri**

# Qanunda "uşaqpulu" adlı anlayış yoxdur?

**"Sosial müavinətlər Haqqında" Qanunda "uşaqpulu" adlı anlayış yoxdur. Müavinət anlayışı var.**



Bunu Sosial Tədqiqatlar Mərkəzinin (STM) icraçı direktoru, əmək hüquqları üzrə ekspert Sahib Məmmədov özünün sosial media hesabında bildirib.

"Həmin qanunda 17 adda müavinət növü var. Onlardan 12-si aylıq, 5-i isə birdəfəlikdir. Onlardan 10-u (8-i aylıq, 2-si birdəfəlik) uşaq müavinəti və ya uşaqlara aid olan müavinətdir. Bundan əlavə "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanun və s. qanunlar da var.

Uşaqlara yönələn müavinətlər 3 qurupa (şərti olaraq) bölünür. 1. İmtiyaza görə (məsələn şəhid uşaqları və s.), 2. Sağlamlığa görə (əlilliyi olanlar) və 3. Demoqrafik vəziyyətə görə.

Sonuncu bir sıra ölkələrdə sosial vəziyyətindən asılı olmayaraq bütün uşaqlara verilir. Bu ölkələr hər min nəfərə düşən doğumun mənfi göstəriciyə malik olduğu (məsələn, Macarısatda -7) və ya mənfiyə yaxın olan ölkələrdir. Misal: Rusiya Federasiyasıda müvəqqəti olaraq "ana kapitalı" adlı birdəfəlik ödəniş nəzərdə tutulur. Əkiz və ya daha çox uşaq doğulduqda hər uşağa görə "ana kapitalı" ödənilir.

Azərbaycanda bu 3 növ uşaq müavinətindən iki növü var (imtiyaz və sağlamlıq). Demoqrafik vəziyyətə görə isə verilmir...", — deyə o qeyd edib.

**Y. Məmmədli**



# Paşinyandan sensasion açıqlama: "Qarabağ bizim deyildi və..."

**...Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağla bağlı növbəti dəfə diqqətçəkən açıqlama verib.**

Tezadlar.az Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağla bağlı növbəti dəfə diqqətçəkən açıqlama verib. Paşinyan Sünik vilayətinin Kornidzor kəndində sakinlərlə görüşü zamanı Qarabağ məsələsinə toxunub. Paşinyan ermənilərin "Qarabağda torpaq itirilməsi" ilə bağlı iddialarına münasibət bildirərkən "Bu torpaq necə bizim ola bilərdi? İzah edin, Qarabağ necə bizim idi?" sualını səsləndirib.

Bəli, Paşinyan ermənilirin beyninə yerilmiş çürük fikirləri çıxarmağa çalışan siyasətçidir.

**A. Məmmədli**

# Uşaqpulu qadınların uşaq doğmasında tənbəllik yarada bilər?

## *DEPUTATIN BU SÖZÜ SƏRT QARŞILANDI*



**Məlum olur ki, deputat Günay Ağamalı efirdə deyib: "Uşaqpulu tənbəllik yarada bilər. Dövlət uşaqpulu versə, valideynlər işləməyəcək. Ailədə atanın işləməsi kifayət edir".**

Deputatın bu sözü sosial mediada sərt tənqid edildi. Sultanə adlı fb istifadəçi yazır ki, Sovet vaxtı uşaqpulu verilirdi, amma analar çoxuşaqlı idi, tənbəl deyildilər, həm də kolxozda sağıçı, pambıqçı, üçümçü... idilər...".

Məhəmməd adlı istifadəçi isə yazır: "Uşaqpulu nə qədər olur ki, onunla kimsə tənbəl olsun? Sənin ümumiyyətlə, maaşlardan, xalqdan xəbərin var? Sən bunları anlamazsan, amma dədən deyirdi ki, yaxşı maaş alır, amma meyvə almağa pulu çatmır. Özünüzə "millət vəkili" deməyi də tərgidin! Siz millətin vəkili deyilsiniz. Sual: Qızının adına keçirdiyin "Buta" bağçasını 1 milyon 500 min manata satırdın, sata bildin?".

Və sair və ilaxır. Amma sonda bir məsələ: əgər deputatımız bu düşüncə və məntiqə malikdirsə, daha sözümüz yoxdur...

**SƏBUHİ**

# Mirşahin Ağayev deputat Günay Ağamalının müdafiəsinə qalxdı

**Məlum olduğu kimi, deputat Günay Ağamalı efirdə belə deyib: "Uşaqpulu tənbəllik yarada bilər. Dövlət uşaqpulu versə, valideynlər işləməyəcək. Ailədə atanın işləməsi kifayət edir". Bundan sonra isə o, sosial mediada sərt tənqid edilməkdədir...**

Bu arada RealTV- nin rəhbəri Mirşahin Ağayev isə deputın müdafiəsinə qalxıb. Sitat: "...Üzümü şəbəkə naqqallarına tuturam:



-Bura baxın, həpəndlər, əgər uşaq pulu sizə özünüzəbənzər güruh tikələri törətmək, Günay Ağamalının-Qadının, Ananın üzünə ağ olmağa qadir "canlılar" doğurmaq üçün lazımdırsa, ya aptekə gedin, ya dü nisyə dəftərinə doğub-törəyin! Yaxud o pula törədəcəyiniz uşaqlar böyüyüb Kamal Abdullanı linç etməyə cumacaqsa, yaratmayın o zavallı potensial qaragüruhçu nəsli...Qoy uşaqlar sevgidən doğulsunlar, maliyyə sənədlərindən yox. Az olsunlar, amma sevgi balaları olsunlar! Doğub, törəyib, sonra da "Pulumu verin!" deyə qışqırmayın. "Bəxtiyar" olmayacaqsınız!".

Paralel olaraq Mirşahin Ağayev də sosial mediada eyni qaydada sərt tənqid edilməkdədir...

**Səbuhi**

# “Heydər Əliyevin qurduğu çip zavodundan əsər-əlamət belə qalmayıb”



“Bakraboçiy” qəzetinin redaksiya heyətinə təşəkkür edirəm. Bu qəzet həmişə ən kritik nöqtələrə diqqət yetirir. Mənim başqa çox vacib məqaləm də ilk dəfə bu qəzetdə çap olunmuşdur (rəhmətlik Nəcəf Nəcəfovun və Əli Naibovun köməyi ilə).

*“Hətta indi bu siyasətin parametrlərini iqtisadiyyata tətbiq edə bilsək çox qısa zamanda inkişaf etmiş ölkə səviyyəsinə qalxa bilərik”*

Bu material da çox kritik momentdə və olduqca zəruri vaxta efirə getmişdir. Rəhmətlik H. Əliyevin 70-ci illərdə geniş elmi&texnoloji fəaliyyətinə həsr olunmuşdur. Həmin illərdə məhz H. Əliyevin rəhbərliyi ilə Azərbaycanın milli iqtisad elminin əsası qoyulmuşdur. İlk dəfə akademik Səmədzadənin araşdırması nəticəsi olaraq ictimaiyyətə bu termin məhz H. Əliyev tərəfindən təqdim olunmuşdur. O vaxtlar bu çox böyük risk idi. Məni o terminin istinad gətirməyə görə az qalmışdı həbs etsinlər. Çox qısa olaraq H. Əliyevin o vaxtki böyük uğurunun 3 istiqamətini deyəcəm.

1. Ölkənin milli iqtisadiyyatı kompleks olaraq ortaya qoyuldu. O vaxta kimi Azərbaycanda makroiqtisadi haqqında tədqiqat dilə gətirilmişdir. Əsərlər təbii ki, Səmədzadənin gizli kitablarında qeydə alınmışdır, amma bunların ideya müəllifi və bütün SSRİ üzrə sübut edən H. Əliyev idi.

2. İqtisadiyyatın sürətlə inkişafının təmin olunması və düzgün iqtisadi siyasətin qurulması. 70-ci illərdə Azərbaycan iqtisadi artım üzrə bütün sosialist bloku ölkələri içərisində birinci yerə çıxdı. Bu dəqiq və güclü iqtisadi siyasət nəticəsində baş vermişdi. Əsas səbəbi isə investisiya - kapital qoyuluşlarının daha sürətli artımının təmin olunması idi. 10 il ərzində əsas kapitala qoyuluşların ÜDM-də payı 40-50 faizdən aşağı düşmədi. Müqayisə üçün deyim ki, müstəqil Azərbaycanda keçən rübdə bu rəqəm 13% olub. Bir riyazi modelin nəticəsi: mən 70-ci illərdə H. Əliyevin iqtisadi siyasətinin parametrlərini 1992-ci ildən etibarən şərt olaraq modelə qoydum, 2050 ci ildə ÜDM-nin bir trilyon dolları keçəcəyini göstərdi. Hətta indi bu siyasətin parametrlərini iqtisadiyyata tətbiq edə bilsək çox qısa zamanda inkişaf etmiş ölkə səviyyəsinə qalxa bilərik.

3. Elmi texnoloji inqilab. 10 il ərzində elm və inkişaf xərclərini 4 dəfə artırdı və təqribən İsrailin elm xərclərinin yarısına çatdırdı. 69 elmi istehsalat birliyi qurdu. Çip və yarımkeçiricilər elmi istehsalat birliyi yaratdı. Elmi işçilərin sayını beş min nəfərdən çox artırdı 1980-22 min, indi 17-18 minə düşüb).

Bizdən 14 il sonra qurulan Tayvan çip zavodu dünya bazarına nəzarət edir, bizdən 27 il sonra qurulan NİVİDEA isə dünyanın bir nömrəli şirkətinə çevrilib (5.3 trilyon dollar).

H.Əliyevin qurduğu çip zavodundan isə əsər-əlamət belə qalmayıb.

**Saleh Məmmədov,**
**Professor**



# Ötən il 2344 alimentdən yayınan inzibati həbs edilib və...

**...Boşanıb arvad-uşağı başsız qoyanda elə bilirdilər ki, yaxşı iş tuturlar... Tezadlar.az xatırladır ki, belələri ötən il necə lazımdır cəzalandırılıb.**

Məsələn, 2025-ci ildə aliment ödəməkdən yayınan 4299 (2024-cü ildə 4131) borclu barəsində inzibati xəta haqqında protokol tərtib edilib, 2344 nəfər inzibati qaydada həbs edilib. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə Məlumatı”nda bunlar əksini tapıb, 3083 (2024-cü ildə 2987) nəfərlə bağlı protokol üzrə məhkəmələr tərəfindən müvafiq inzibati tənbeh tədbirləri tətbiq olunub, 2344 (2024-cü ildə 2318) nəfər inzibati qaydada həbs edilib. 2025-ci ildə cinayət məsuliyyətinə cəlb etmə haqqında 286 (2024-cü ildə 174) təqdimat verilib. Onlardan 235 (2024-cü ildə 164) təqdimat əsasında cinayət işi başlanılıb. 3 (2024-cü ildə 3) təqdimat üzrə cinayət işinin başlanması rədd edilib, 48 (2024-cü ildə 7) təqdimat növbəti hesabat dövrünə qalıq keçib.

Odur ki, evlənməyə tələsmək olar, amma boşanmaya tələsmək yolverilməzdir! Daha doğrusu, sonu qan-qarğış və cəzadır!

# Rüstəm İbrahimbəyovun bu qəhrəmanının başına görün nə gəlib-İNANILMAZ

**Senari müəllifi Xalq yazıçısı Rüstəm İbrahimbəyov olan “Səhranın bəyaz günəşi” filminin açıq-saçıq epizodu çəkilirmiş... Kaxi Kavsadzenin “arvad”larından biri soyunaraq ona üzüm yedirirmiş. Bu vaxt aktyorun xanımı Bella Mirianaşvili pavilyona daxil olur.**



Rejissor Vladimir Motıl “Çəkiliş meydançasında kənar şəxslər var”, - deyə qışqırır. “Mən kənar şəxs deyiləm, Kaxinin arvadıyam”, - aktyorun xanımı cavab verir. O, ərinin çılpaq qadınla çəkildiyini görcək ani tutulur, ancaq astadan “Davam edin, davam edin, mane olmayacam”, - deyir. Bu epizod sonradan filmdən çıxarılır. Kaxi Kavsadze xanımına ən sadiq həyat yoldaşı idi. Kaxi və Bella 26 il ailə həyatı yaşadılar. Lakin Bella cəmi 3 il sağlam oldu. Ailə qurduqdan sonra onun səhhətində problem yarandığından qadın 23 il əlil arabasında yaşamalı oldu. Bununla belə Kaxi xanımını atmayır, əksinə, ona qulluq edir.

Cütlüyün bir oğlu və bir qızı dünyaya gəldi. “Biz heç vaxt bir-birimizə səsimizi qaldırmadıq”, - Kaxi xatırlayırdı. Bella 1992-ci ildə dünyadan köçdü, uzun illər tənha qalan Kaxi isə 2021-ci ildə koronavirusdan dünyasını dəyişdi.

Bu gün Kaxi Kavsadzenin doğum günüdür.

**ANAR TAĞIYEV,**
**TƏDQİQATÇI**

# Azərbaycan Kinematoqrafçılar İttifaqı üzvlərindən və görkəmli kino xadimlərindən etiraz bəyanatı

**TEZADLAR.AZ-A GÖNDƏRİLƏN BƏYANATDA DEYİLİR:**

**“Məlum olduğu kimi, “Azərbaycan Kinematoqrafçılar İttifaqı” İctimai Birliyinin (bundan sonra – “İttifaq”) sədri, Xalq artisti Rasim Balayevin qəfii vəfatından sonra İttifaqın yeni sədrinin seçilməsi zərurəti yaranmışdır. İttifaqın İdarə Heyətinin 8 may 2026-cı il tarixli iclası keçirilərək yeni sədrin seçilməsi üçün 26 may 2026-cı il tarixində növbədənkənar Ümumi Yığıncağın keçirilməsi və sədr vəzifəsinə iki namizədin irəli sürülməsi qərara alınmışdır. İdarə Heyətinin katibliyinə tapşırılmışdır ki, hazırlıqla bağlı təşkilati məsələləri həll etsinlər.**



Lakin iclasdan sonra keçən müddət ərzində lazımi hüquqi prosedurlara və qanunvericiliyə dəqiq və şəffaf şəkildə əməl edilməmiş, bu səbəbdən qeyri-müəyyənlik, məlumat çatışmazlığı və qeyri-şəffaf mühit yaranmışdır. İttifaqın bütün üzvlərinə Ümumi Yığıncağın gündəliyi və gündəliklə bərabər İttifaqın sədri vəzifəsinə namizədlər barədə öncədən məlumat göndərilməmişdir. Habelə, İdarə Heyətinin, yəni icra orqanının üzvü olan və özünü “İcraçı katib” kimi təqdim edən namizədlərdən biri Rasim Balayevin vəfatından sonra İdarə Heyətinin səlahiyyətlərini mənimsəyərək İttifaqa faktiki rəhbərliyi həyata keçirmiş, buna baxmayaraq Ümumi Yığıncağın gündəliyinə İttifaqın fəaliyyəti barədə hesabat məsələsini daxil etməmiş, üstəlik sədr vəzifəsinə namizəd kimi çıxış etməyə hazırlaşır.

Beləliklə, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununun və İttifaqın nizamnaməsinin tələblərinə zidd olaraq, Ümumi Yığıncağın gündəliyi barədə İttifaqın üzvlərinə tam məlumat verilməmiş, gündəlik şəffaf şəkildə açıqlanmamış, Yığıncağa hazırlıqla bağlı prosedur qaydalarına əməl edilməmişdir.

Həmçinin qeyd edirik ki, İttifaqın üzvlərinin ümumi sayı ilə bağlı qeyri-dəqiq və ziddiyyətli məlumatlar mövcuddur. Üzvlərin rəsmi ümumi reyestri yoxdur. Buna baxmayaraq və üzvlərin ümumi siyahısı və sayı dəqiqləşdirilmədən, sabah Ümumi Yığıncağın keçirilməsi planlaşdırılır. Bu halı İttifaqın üzvlərinin təşkilatın idarəetməsində iştirak kimi təməl hüquqlarının kobud şəkildə pozulması, qeyri-legitim Yığıncaqda iştirak edəcək üzvlərin süni üstünlüyünün yaradılması və idarəetmənin öz təsiri altına alınması cəhdi kimi qiymətləndiririk.

Eyni zamanda, sabahkı Yığıncaqda müəyyən şəxslərin İttifaqın nizamnaməsinə dəyişiklik etməklə əlavə səlahiyyətlər əldə etməyə çalışacağı barədə ciddi narahatlıqlar mövcuddur.

Habelə, hal-hazırda İttifaqın fəaliyyətinin hərtərəfli təftişinə ciddi zərurət yaranmışdır. Belə olan şəraitdə tələsik, ciddi hazırlıq aparılmadan, qanunvericiliyin və İttifaqın nizamnaməsinin tələbləri pozulmaqla seçkilərin keçirilməsi onların şəffaflığı ilə bağlı ciddi şübhələr doğurur, bu isə İttifaqın fəaliyyətinə və bütövlükdə kino sənətimizə və ümumilikdə mədəniyyətimizə ciddi zərər vura bilər.

Qeyd edilənləri nəzərə alaraq, İttifaqın üzvləri və digər görkəmli kino xadimləri olaraq bəyan edirik ki, 26 may 2026-cı il tarixində Bakı şəhərində keçirilməsi nəzərdə tutulan İttifaqın növbədənkənar Ümumi Yığıncağının çağırılması Azərbaycan Respublikasının qanunvericiliyinə və İttifaqın nizamnaməsinə uyğun həyata keçirilməmiş, Ümumi Yığıncaq qeyri-legitimdir və orada qəbul ediləcək qərarların hüquqi qüvvəsi yoxdur.

Biz Azərbaycan kino mühitinə və milli mədəniyyətimizə zərər verə biləcək bu cür addımlara etiraz edirik. “Azərbaycan Kinematoqrafçılar İttifaqı” İctimai Birliyinin üzvləri və digər görkəmli kino xadimləri olaraq bəyan edirik ki, sabah keçirilməsi nəzərdə tutulan növbədənkənar Ümumi Yığıncaq qeyri-legitim və qeyri-qanuni olduğu üçün təxirə salınmalı, qanunvericliyə və İttifaqın nizamnaməsinə uyğun olaraq yenidən çağırılmalıdır.

Bununla bağlı aidiyyəti dövlət qurumlarından məsələyə hüquqi qiymət verilməsini və qanunvericiliyə uyğun tədbirlər görülməsini xahiş edirik.

“Azərbaycan Kinematoqrafçılar İttifaqı” İctimai Birliyinin üzvləri və digər görkəmli kino xadimləri:

1. **Vaqif Mustafayev**
2. **Cəmil Quliyev**
3. **Oktay Mirqasım**
4. **Akif Əli**
5. **Adil Abbasov**
6. **Şamil Əliyev**
7. **Əmir Hacılı**
8. **Mahirə İskəndərova**
9. **Kamran Qasımov**
10. **Firəngiz Qurbanova**
11. **Rəfail Qəmbərov**
12. **Cahangir Mehdiyev**
13. **Rövşən Məmmədov**
14. **Baba Məsimov**
15. **Mirbala Səlimli**
16. **Əbdül Mahmudov**
17. **Hacı İsmayılov**
18. **İlham Namiq Kamal**
19. **Tariyel Qasımov**
20. **Rafiq Əzimov**
21. **Zəfər Murtuzov**
22. **Fəxrəddin Manafov**
23. **Ayaz Salayev**
24. **Mehriban Zəki**
25. **Cahangir Novruzov**
26. **Gülzar Qurbanova**
27. **Elbrus Vahidov”.**

# Yasamal RİH-nin məmurlari tanınmış vəkilin evini zorla sökür!

*"Azərbaycan Respublikasının qanunvericiliyində dövlət vətəndaşının torpağını dövlət ehtiyacı üçün ala bilər, amma evlərin sökülməsi adında heç nə yoxdur"*

**...50-ci illərdə Şəkidə erməni kilsəsi və keşişi olanda kilsənin yanında kiçik masanın üstündə balaca kisələrdə ədviyyat, yəni istiot, sumax, darçın, zəncəfil, kişniş toxumu, sarıkök, mixək və s. satan Sadıq adlı şəkili olub. Həmin vaxtlar limon tapmaq çətin imiş, çünki hamı belə hesab edirmiş ki, limonu becərmək çətindir, çünki subtropik bitkidir. Necə olubsa, Sadıq haradansa bir limon tapıb mixək kisəsinin üstünə qoyubmuş. Keşiş kilsədən çıxıb evə gedəndə Sadığın yanından keçir, onunla salamlaşır və görür ki, mixək torbasının üstündə bir limon da var. Keşişlə Sadıqın arasında belə bir söhbət olur:**

**"Keşiş:** - A Sadıq, habu limonu neçiyə verirsən?

**Sadıq:** Keşiş ağa, 7 qəpiyə.

**Keşiş:** Ə, 7 qəpiyə də limon olar? Bir yönnü qiymət de, alax da..

**Sadıq:** Keşiş ağa, mən 7 qəpiyə deyirəm, sən nə deyirsən?

**Keşiş:** Ə, da sən nə dedin ki, mən nə diyəm, bir yönnü qiymət de daa.

**Sadıq:** Keşiş ağa, alverin qaydası var, satan bir qiymət deyər, alan bir qiymət diyər, razılığa gəlib halallaşarlar. Mən diyirəm 7 qəpiyə, sən deyirsən?

**Keşiş:** Ə, da sən nə dedin ki, mən nə diyəm (görünür keşiş qiyməti baha hesab edirmiş)

**Sadıq:** Keşiş ağa ya limonun 7 qəpiyini ver apar, ya da müftə apar, halalın olsun, camaatı başımıza yığma, diyərlər ki, Sadıq keşişə hörmətsizlik eliyir.

**Keşiş:** Ə, puluma noolutdu ki, pulumu verib aliciyəm, sən bir yönnü qiymət di daa..

**Sadıq:** Keşiş ağa, ay ağroo alım, mən diyirəm 7 qəpiyə, sən nə diyirsən?

**Keşiş:** Ə, da sən nə didin ki, mən nə diyəm, a Sadıq?

**Sadıq:** Keşiş ağa, mən diyirəm səən arvadın filan-filan olsun, sən nə diyirsən?!!!

**Keşiş:** Ə, ağzoo təmiz saxla, axmağın biri axmaq, səən də arvadın filan-filan olsun!

**Sadıq:** Ay sağool, qardaş bu qiymətə də məndə limon yoxdu!".

***

İndi fikirləşirəm ki, Yasamal RİH məmurlarının şəkili Sadıq qədər ədaləti, insafı, mərifəti yoxdu. Sadıq heç olmasa limon alverində keşişin də fikrini öyrənmək istəyirdi ki, mən limonu 7 qəpiyə satıram, de görək sən nə vermək istəyirsən? Mənim yaşadığım Bakı şəhəri, Yasamal rayonu, Mirzə Fətəli Axundov adlanan ərazidə evlər sökülür. Söküntüdə Yasamal Rayon İcra Hakimiyyəti alıcı qismində iştirak edir. Söküntünün məqsədi bilinmir, deyirlər ki, guya bu evlərin yerində park salınacaq, ona görə də bizim evləri sökürlər. Azərbaycan Respublikasının qanunvericiliyində dövlət vətəndaşının torpağını dövlət ehtiyacı üçün ala bilər, amma evlərin sökülməsi adında heç nə yoxdur. Ölkəmizdə cənab Prezidentimizin 27 may 2010-cu il tarixdə imzaladığı "Torpaqların (evlərin yox haa, torpaqların) Dövlət Ehtiyacları üçün alınması Haqqında" Qanun var. Həmin Qanunun 3-cü maddəsində göstərilir ki, torpaqların alınmasına əsas verən dövlət ehtiyacları aşağıdakılardır.

**"1. Dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin (magistral neft və qaz boru kəmərlərinin, kanalizasiya, yüksək gərginlikli elektrik xətlərinin, hidrotexniki qurğuların) çəkilməsi və quraşdırılması;**

**2. sərhədboyu zolaqda dövlət sərhəddinin etibarlı mühafizəsinin təmin edilməsi;**

**3. müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikilməsi;**

**4. dövlət əhəmiyyətli dağ-mədən sənayesi obyektlərinin tikilməsi;**

**5. dəniz limanının ərazisinin artırılması;**

**6. dövlət mülkiyyətində olan hava limanlarının və ya aerodromlarının genişləndirilməsi və ya yeni hava limalarının və aerodromların inşası".**

Qanunun 5-ci maddəsində göstərilir ki, dövlət ehtiyacları üçün xüsusi mülkiyyətdə və bələdiyyə mülkiyyətində olan torpaqlar dövlət ehtiyacı üçün alına bilər. Həmin Qanunun 31-ci maddəsində göstərilir ki, torpağı alan orqan, yəni Yasamal İcra Hakimiyyəti torpaq sahibinə torpağın danışıq (könüllü alqı-satqı) yolu ilə satın alınmasına razılıq barədə bildiriş göndərir. Həmin maddənin 31.2.1-ci maddəsinə görə torpağı alan torpaq mülkiyyətçisinə göndərdiyi bildirişdə torpağın satın alınmasının məqsədini də göstərməlidir.

İndi bu "alan" oğru kəs mənə nə bildiriş göndərib, nə də mənim torpağımı nə məqsədlə alır onu demir, bildirmir, nə də mənimlə görüş keçirmir.

Həmin Qanunun 32 maddəsində göstərilir ki, alınan torpaqlar, yəni evi sökülənlərə münasibətdə mənzillərinin dəyərləri bazar qiyməti ilə qiymətləndirilir. Həmin Qanunun 58-ci maddəsində "Bazar qiyməti"nin nə olduğu izah edilir. Həmin izahda göstərilir ki, mənim evimin bazar qiyməti evimin yerləşdiyi ərazinin 100 m radiusunda yerləşən evlərin dəyəri ilə müqayisələndirilərək qiymətləndirilir. Yəni, mənim evimdən 100 m aralıda yerləşən təmirli evin hər kv.m-i neçəyə satılırsa, həmin ərazidə 3 belə mənzilin hər kv.m-nin satış qiyməti müəyyən edilir və həmin qiymətlər toplanıb 3-ə bölünür, orta qiyməti çıxarılır və mənim evimin hər kv.m-nə o qədər pul verilir. Lakin Yasamal RİH qanunun tələblərinə riayət etmir, mənə deyir ki, sənin evinin hər kv.m-ni 2700 manata alıram, çıx!

Məndən soruşmur ki, sən neçəyə satırsan? Ona görə deyirəm ki, şəkili Sadığa Allah rəhmət eləsin. O təkidlə keşişin fikrini öyrənmək istəyirdi ki, sən limona nə verə bilərsən?




*"İndi bu "alan" oğru kəs mənə nə bildiriş göndərib, nə də mənim torpağımı nə məqsədlə alır onu demir..."*

**Görəsən, məmurlar niyə belə edir? İmkansız vətəndaşların haqqını niyə tapdalayır?**

Fikrimcə, Yasamal RİH çox təhlükəli bir addım atır. "Mən sizin evlərin yerində park salıram" adıyla şəhərin kasıb, oborigen əhalisini bu yolla sıxışdıraraq şəhərin mərkəzindən çıxarmaq, şəhərin mərkəzini, gözəl yerlərini bu məmurlar özləri, övladları, qohum-əqrəbaları üçün boşaltmaq istəyir. Axı Qanunda şəhərdə park salmaq üçün əhalini zorla köçürmək nəzərdə tutulmayıb. Vəzifədə olmalarından istifadə edərək Dövlətin əmlakını mənimsəyənlər cinayət yolu ilə əldə etdikləri pullar hesabına Bakı şəhərini istila etməyə başlayıblar, bizi ona görə şəhərdən qovurlar. Bizdən iyrənirlər, avtobusda, metroda getdiyimizdən bizi bəyənmirlər ki, aralıda dur, səndən tər iyi gəlir.

***

Azərbaycan Respublikasının Konstitusiyasının 13-cü maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Həmin maddənin III hissəsində göstərilir ki, mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz. Bu məmurlar isə mənim mülkiyyətimi öz istədiyi qiymətə almaq zoru tətbiq etməklə mənim mülkiyyət hüququmu pozur. Konstitusiyamızın 29-cu maddəsinin II hissəsində göstərilir ki, mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Qanunun 32-ci maddəsində göstərilir ki, şəxsin mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Konstitusiyanın 68-cli maddəsinin I hissəsində deyilir ki, hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən, vicdanlı davranışına hüququ vardır".

İndi görün, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 164-cü maddəsi evi əlindən alınanlara hansı hüququ verir: Məcəllənin 164.1-ci maddəsində göstərilir ki, "sahibin (yəni mənim, ev sahibinin) iradəsi olmadan (yəni razılığı olmadan) sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır. Hər bir sahibin (yəni ev sahibinin) qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır".

Mənim də o qədər gücüm yoxdur, gərək qonşular kömək edə, onların da çoxu qovulub kəndlərə. İndi Yasamal RİH rəsmiləri bir ekskovatoru gətirib dirəyib mənim pilləkənimə ki, evi boşalt. Baxıram ki, sükan arxasında oturan da mənim kimi tər iyi verəndir. Mənim evimi əlimdən alan o deyil, məmurdur. Ekskovatorun arxasına keçirəm ki, bəlkə o məmuru görəm və ona deyəm ki, "ayə, niyə mənim mülkiyyətimdən istifadə etməyimə qadağan olunmuş özbaşınalıq edirsən".

Görürəm ki, məmur yoxdur, mənim o tər iyi gələn qardaşımı irəli salıb, özü gizlənibdi, yoxdu. İstəyir ki, biz iki qardaş bir-birimizi qıraq, məmurun da işi düzəlsin.

Çox xahiş edirəm, o məmuru görsəniz yerini mənə deyin. Qorxmayın, sizi satmaram. Məmuru tapa bilmədiyimə görə də cənab Baş nazirimiz Əli Əsədova deyirəm ki, "Ay qurbanınız olum, ay başınıza dönüm, Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsində cənab Prezidentin belə andı var ki, "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən: 1) Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə; 2) Dövlətin müstəqilliyini və 3) Ərazi bütövlüyünü qoruyacağıma; 4) Xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

Canım Prezidentim bu andın 3 bəndinə görə Sizə intəhasız sevgimizi və sayğılarımızı bildiririk. 4-cü bəndi də bu məmurlar nəzərə alsalar, bizim evimizi zorla sökə bilməzlər, axı bizim hüquqlarımızın təminatçısı Ölkə rəhbəridir. Onun qəzəbindən qorxun!

**İkram Abdullayev,**
**Vəkil**

# WUF13 və magistratura imtahanına çata bilməyənlər-TƏƏSSÜFLƏR

*"Beynəlxalq tədbirin keçirildiyi gündə DİM ölkə əhəmiyyətli magistratura imtahanı da planlaşdırıb"*

**...Az qala 3 il öncədən bilinirdi ki, bu tarixdə Bakıda qlobal forum keçiriləcək. Tədbirlərlə bağlı Prezident sərəncam imzalayıb, Təşkilat Komitəsi yaradılıb, məsul şəxslər müəyyənləşdirilib.**

Amma qəribədir ki, belə bir beynəlxalq tədbirin keçirildiyi gündə DİM ölkə əhəmiyyətli magistratura imtahanı da planlaşdırıb.

Bu necə koordinasiyadır? Təşkilat Komitəsi bu tip məsələləri nizamlamalı deyildimi?

Bir tərəfdə şəhərdə geniş təhlükəsizlik tədbirləri, bağlanan yollar və yüksək trafik var, digər tərəfdə isə minlərlə insanın vaxtında çatmalı olduğu, ölkə miqyaslı bir imtahan. Xeyli sayda insanlar da yollarda qalıb, imtahana gecikib və ya ümumiyyətlə, imtahana çata bilməyib.

Bunların hamısı da əvvəlcədən bilinən məsələlər idi. Rəqəmsallaşmadan, "smart city", müasir şəhər idarəçiliyindən danışırıqsa, ilk növbədə dövlət qurumları arasında məlumat paylaşımı, vahid planlama və koordinasiya işləməlidir.

Əks halda, bütün bu plansızlığın nəticəsini yenə vətəndaş yaşayır. Vətəndaşlarımız yollarda qalır, stress keçirir, imtahana çata bilmir və bununla da dövlət idarəçiliyinə inam zədələnir.

Yüksək səviyyəli forumlar keçirmək çox yaxşıdır, lakin bununla iş bitmir axı.




Əsas məsələ eyni zamanda qurumlar arasında intizamın, məsuliyyətin, koordinasiyanın və idarəetmə mədəniyyətinin işləməsidir.

Ümumiyyətlə, son zamanlar baş verənlər göstərir ki, dövlət intizamının gücləndirilməsi üçün, həmçinin tapşırılan işə cavabdehliyin və məsuliyyətin gücləndirilməsi üçün daha sərt tədbirlər görülməlidir.

**Osman GÜNDÜZ,**
**Ekspert**

# Erməni müstəntiq Ruhulla Axundovu necə şərləyirdi? - TARİXİN DƏRSİ

*"Həbs olunmuş şəxsi ittiham etmək və özlərinə lazımı cavabları almaq üçün rejimin metodologiyaları olub"*

**...Tədqiqatçı, professor (polkovnik) rəhmətlik Cəlal Qasımov (1959- 2021) yazırdı: "Ruhulla Axundov sözün bütün mənasında kommunist idi və belə bir kommunisti ləkələmək, eləcə də məhv etmək üçün erməni müstəntiqlərin əlinə böyük fürsət düşmüşdü. Mövcud vəziyyətdə totalitar rejimin və Mir Cəfər Bağırovun verdiyi bu fürsəti və şansı qaçırsaydılar, markaryanlar və qriqoryanlar bunu özlərinə bağışlamazdılar. Ona görə də, onlar müttəhimlərə fiziki, mənəvi-pisixoloji işgəncə verməklə R. Axundovun əleyhinə ifadə almağa çalışırdılar".**



Rejimin cəza aparatı demək olar ki, istəklərinə nail oldular. Dəhşətli işgəncələr istər Ruhulla Axundov, istərsə də digərlərini məhv etmək, sındırmaq üçün düşünülmüş mexanizm idi. Son vaxtlar müraciət etdiyimiz istintaq materiallarında bəzi maraqlı məqamlar diqqəti cəlb edir. Totalitar rejim olan sovet sistemi yeri - məqamı gələndə öz tərəfdaşlarını da məhv etməkdən çəkinməyib. İstintaq materiallarına nəzər saldıqda bir daha aydın olur ki, həbs olunmuş şəxsi ittiham etmək və özlərinə lazımı cavabları almaq üçün rejimin metodologiyaları olub. Hansı cəza vasitələrini tətbiq ediblər onu demək çətindir. Amma reallıq ortadadır ki, Ruhulla Axundovdan istədikləri cavabı alıblar.

**Sual: Məlum olub ki, antisovet türk təşkilatı ilə əməkdaşlıq edirsiniz. Bu barədə nə deyə bilərsiniz?**

Ruhulla Axundovun cavabı: 1934-cü ildə Həsən Səfərov Bakıya gəldi və məni məlumatlandırdı. Vaxtilə H. Səfərov Uralda çalışıb. O, təşkilatın Qafqaz üzrə katibi olub. Həmin təşkilat vasitəsilə Beriya, Mircəfər Bağırov və NKVD-nin rəisi Sumbatova qarşı terror aktı hazırlamışdı.

**Sual: Daha hansı təşkilatla əlaqəniz olub?**

Ruhulla Axundovun cavabı: Mənim 10-dan artıq təşkilatla əlaqəm olub. Qeyri-leqal musavat təşkilatı ilə əlaqəm olub. Mən təsdiqləyirəm ki, bu təşkilatlar antisovet mövqeyində olaraq casusluqla məşğul olub (İstintaq işi. № 12493, DTX arxiv).

R.Axundovdan millətçi qrupun üzvlərinin adını soruşduqda o, Ağamir Məmmədovun, Əli Nazimin və Ələsgər Ələkbərovun adını çəkir.

Digər istintaq materiallarında oxşar dindirilmələr və özlərinə lazım olan cavablar yer alıb. Bütün bunlar bir daha sübut edir ki, sovet cəza maşını hər hansı şübhəli bildiyi və qəbul etmək istəmədiyi şəxsdən özlərinə məxsus istintaq yolu ilə lazım olan cavabı ala bilirdilər.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası RSFSR CM-in 58-5, 58-7, 58-8 və 58-11-ci maddələrinə əsasən Ruhulla Axundovu güllələnməyə məhkum etmişdir. Hökm 21 aprel 1938-ci ildə Moskva şəhərində yerinə yetirilmişdir.

Tədqiqatçı, professor Cəlal Qasımov yazır: **"Maraqlıdır ki, vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyətini, müsavatı və müsavatçılığı tənqid və hətta təhqir edən R. Axundova cavab verməməyə çalışan M. Ə. Rəsulzadə 1952-ci ildə yazırdı: "Azərbaycanın sovetləşdirildiyi ilk gündən başlayaraq müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov, "Panturanizmin zəhərli bir nümayəndəsi və "Müsavat partiyasının zavallı bir agenti" kimi günahlandırıldı" və güllələndi. Əslində isə o, həmişə və hər yerdə müsavatı və müsavatçıları deyil, onun qətlinə fərman verən bolşevikləri və bolşevizmi təbliğ və təqdir edib".**

Totalitar rejimə sadəlövhcəsinə inanmaq Ruhulla Axundovun həyatına son qoydu. Yalnız illər keçəndən sonra R.Axundova 10 dekabr 1955-ci ildə bəraət verildi.

**Ş. Aydınoğlu Vahabzadə**

**P.S. 37- repressiyalarını tədqiq edən, uzun illər öncə tanıdığım, təcrübəsindən istifadə etdiyim görkəmli ziyalımız Professor Cəlal Qasımovun hər zaman tələbələrinin yanında işlətdiyi bir söz vardı: - "Yaşamağa dəyər!" O, orta ömür yaşadı, amma bu orta ömürdə çox işlər gördü... Məkanın cənnət olsun!**

# Bakı-Tbilisi qatarı bu gün yola çıxır: qiymətlər isə əlçatan deyil!

*"Bu həm də iki ölkə arasında əlaqələrin kəsilməsinə hesablanmış bir məzələnmədir..."*



**Bu gün uzun fasilədən sonra Bakı-Tbilisi-Bakı sərnişin qatarı fəaliyyətini bərpa edərək Bakıdan Tbilisiyə yola çıxır... Bəziləri hoqqabazlıq edərək Bakı-Tbilisi qatarına olan biletin qiymətinin bahalığını doğru sayır... Hesab edirik ki, bu, minimum əməkhaqqı 400 manat olan ölkədə yüz minlərlə soydaşı Gürcüstanda yaşanların əsəbləri ilə oynamaqdır...**

Bu həm də iki ölkə arasında əlaqələrin kəsilməsinə hesablanmış bir məzələnmədir... Qiymətlərə yenidən baxılmalıdır. Bəli, Gürcüstana getmək istəyənlərin çoxluğunun qarşısını bu yolla almaq istəyən turizm məmurları yaxşı bilirlər ki, Azərbaycanda adicə Qəbələyə gedib 1 həftə qalan ailə illik gəlirini qoyub cibiboş geri qayıtmalıdır, Gürcüstana gedib bir həftə qalırsan, ən çoxu 300-400 dollar pulun çıxa bilər... Pandemiyadan əvvəl şəxsən özüm şəxsi avtomobilimlə (ailə ilə-4 nəfər) Gürcüstanın Ucarma, Tiblisi, Rustaveli, Kutaisi, Batumi və s. bölgələrində olmuşam, ordan da Türkiyə ərazisinə keçib Trabzonda 3 gün qalmışıq(Türkiyə bahalıqdır), sonra geri qayıtmışıq və "yorğanımıza görə ayağımızı uzatmışıq", bu fərqi görmüşük...

İkinci bir məsələ, Bakıdan Ağdama olan dəmiryolu məsafəsi 371 km, Bakıdan Tbilisiyə isə 580 km-dir. Bakı-Ağdam-Bakı marşrutu üzrə sərnişin daşımaları da İsveçrənin "Stadler" şirkətinin "FLIRT" qatarları ilədir.

**QİYMƏTLƏR:** Bakıdan Ağdama 24,8 manat, Bakından Tbilisiyə isə... Artıq hamı bilir... Hətta mayın 26-da Gürcüstandakı qohumlarına baş çəkmək istəyən çox olduğundan bileti 281 manata satıblar... Bakıdan Tbilisiyə təyyarə ilə 1 saat 10 dəqiqəyə- 154 manata, qatarla isə təxminən 8-9 saata- 81+ manata! Hansı sərfəlidir? Qatar elektrik enerjisi ilə, təyyarə isə super benzinlə işləyir...

Odur ki, uzun fasilədən sonra qohumlarına baş çəkmək istəyən sərnişinlərin çoxluğunu bilib dərhal qiymətləri əlçatan etməmək doğru addım deyil.

**A. Məmmədli**



# Deputat Günay Ağamalı subay olduğu üçün uşaqpulu verilməsinin əleyhinədir!

**Deputat Günay Ağamalı Azərbaycanda uşaqpulu verilməsinin əleyhinə olduğunu bildirdi və ciddi ictimai qınağa tuş gəldig Amma hələ də sözünü və dediklərini sosial-hüquqi mənada əsalandıra bilmirg Niyə? Səbəbi indi bilindi. Milli Məclisin saytında onun barəsində rəsmi məlumatı araşdırarkən məlum oldu ki, o, subaydır, elə buna görə də uşaqpulu verilməsini istəmir.**

Aşağıdakı rəsmi sənəd və məlumat bunu təsdiq edir. Tezadlar.az təqdim edir:

| | |
|---|---|
| Doğulduğu tarixi | 11 fevral 1983-cü il |
| Doğulduğu yer | Naxçıvan MR, Naxçıvan şəhəri |
| Təhsili | Ali |
| Bitirdiyi təhsil müəssisəsinin adı | Qərb Universiteti, 2004-cü il (bakalavr) Azərbaycan Dillər Universiteti, 2006-cı il (magistr) Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2012-ci il |
| İxtisası | Tərcüməçi Tərcüməçi (ingilis dili) Praktik psixoloq |
| Deputat seçildiyi tarix | 23 sentyabr 2024-cü il |
| Bildiyi xarici dillər | Rus, türk–sərbəst. ingilis yaxşı |
| Ailə vəziyyəti | Subay, 3 övladı var |

# Bu gün yağış yağacaq



**Bakıda və Abşeron yarımadasında bu gün bəzi yerlərdə yağış yağacağı gözlənilir.**

Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.

Yarımadanın ayrı-ayrı yerlərində yağışın qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var.

# Qurban bayramı ilə bağlı fətva verildi



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib.**

Bu barədə QMİ məlumat yayıb.

"Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək yalnız Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulub. Digər yerlərdə isə imkanı olan şəxslərin qurban kəsmələri sünnət əməl, Qurban ətini fəqir ailələrə paylamaq - böyük savab sayılır. Uca Allah müqəddəs Qurani-Kərimdə qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: "Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır..." (Həcc; 37). Mübarək ayədəki ilahi hikmətə inanan hər kəs Qurban ibadətinin mahiyyətini təhrif etməkdən, bidətçi yanaşmalardan çəkinməlidir.

Adətən qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, fəqət əziz Peyğəmbərimizin (s) tövsiyəsinə görə, imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır. Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir il, öküz və inək iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir.

Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə, digər hissə imkansız ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.

AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccə ayının 10-na — Miladi təqvimlə 27 maya təsadüf edəcək. Bu il Türk Dövlətləri Təşkilatı Dini idarə rəhbərləri Şurasının 18 mayda qəbul edilən yekdil fətvası ilə bayram günü 27 may tarixi kimi təsdiqlənib. Şəriətə uyğun olaraq Qurban kəsimi 27 may tarixindən başlayaraq 3 gün davam edə bilər. Mayın 27-də məscidlərimizdə Bayram namazları qılınacaq", - fətvada deyilir.

**Hörmətli "Təzadlar"! Bu gün- 17 may 2026-cı il tarixində Bakı şəhərində magistraturaya qəbul imtahanı keçirilməli idi. İmtahan DİM tərəfindən təşkil olunmuşdu və iştirak üçün hər bir vətəndaş 50? ödəniş etmişdi.**

# Dövlət İmtahan Mərkəzindən daha bir şikayət-MAGİSTRATURA İMTAHANINDAKI YARIMÇIQLIQ

*İnsanların təsir edə bilmədiyi təbii fəlakət səbəbindən onların magistratura hüququndan məhrum edilməsi ədalətsiz və qeyri-insani yanaşmadır*




Lakin həmin gün səhər saatlarından etibarən Bakıda faktiki olaraq fövqəladə vəziyyət yaranmışdır. Gecəboyu yağan güclü leysan nəticəsində şəhərin əksər yolları tamamilə su altında qalıb. Bir çox küçələrdə suyun səviyyəsi səkidən belə yuxarı oldu. Bir çox istiqamətlərdə avtomobillərin hərəkəti mümkünsüz vəziyyətə düşüb. Buna baxmayaraq, DİM imtahanları nə ləğv edib, nə də təxirə salıb.

Mənim həyat yoldaşımın imtahanı saat 09:15-də Ramanı qəsəbəsində yerləşən imtahan mərkəzində idi. Biz isə Nərimanov rayonunda yaşayırıq. Səhər saat 08:00-da evdən avtomobilə çıxmağımıza baxmayaraq, evdən uzaqlaşa bilmədik. Yollar tamamilə su altında idi. Hətta hansısa şəkildə davam etsəydik belə, avtomobilin mühərrikinin su alması və ciddi maddi zərərin yaranması riski var idi. Dövlət sonradan bu zərəri qarşılamayacaqsa, heç kim avtomobilini bilərəkdən təhlükəyə atmaz. Nəticədə geri qayıtmağa məcbur olduq və uzun müddət alternativ yollar axtarmağa çalışdıq.

Bu vəziyyət bizim nəzarətimizdən tamamilə kənar idi.

Biz DİM-in qaynar xəttinə dəfələrlə zəng etdik. Lakin yalnız avtomatik cavab verildi ki, "bu gün qeyri-iş günüdür, iş günlərində əlaqə saxlayın." İmtahan günü və fövqəladə vəziyyət zamanı qurumun qaynar xəttinin fəaliyyət göstərməməsi qəbuledilməzdir.

Həmçinin imtahan keçirilən 90 nömrəli məktəblə əlaqə saxlamağa çalışdıq, lakin zənglərə cavab verən olmadı.

İmtahana gecikən şəxslər məktəblərə buraxılmayıb. Bizim kimi hava şəraiti səbəbindən ümumiyyətlə, gedə bilməyən çox sayda insan var. İnsanların təsir edə bilmədiyi təbii fəlakət səbəbindən onların magistratura hüququndan məhrum edilməsi ədalətsiz və qeyri-insani yanaşmadır.

Belə çıxır ki:

- vətəndaşlar 50AZN ödəniş edir;
- fövqəladə hava şəraitinə görə imtahana gedə bilmir;
- DİM isə nə məsuliyyət daşıyır, nə də alternativ həll təqdim edir.

Biz tələb edirik ki, DİM bu vəziyyəti nəzərə alsın, rəsmi açıqlama versin və imtahana qatıla bilməyən şəxslər üçün əlavə və ya təkrar imtahan təşkil etsin. Minlərlə abituriyent DİM-in məsuliyyətsiz qərarlarının qurbanına çevrilməməlidir.

**Nicat ABDULLAYEV,**
**Bakı şəhər sakini**

# Bakını gözəl görmək istəyirəm, amma... -TANINMIŞ MÜTƏXƏSSİS TƏKLİF VERİR!

*Bu gün bir çox məsul şəxslərin şəxsi emalatxanaları var*

**...Bu günlərdə Sumqayıt şəhərində oldum və şəhər məndə olduqca müsbət təəssürat yaratdı. Sumqayıtın geniş və rahat küçələri var. Bakı şəhərində olduğu kimi 18-20 və daha çox mərtəbəli binaların üstünlük təşkil etməməsi şəhər mühitinə xüsusi ahəng və rahatlıq qazandırır.**

Lakin bu məqam bir sıra suallar da doğurur. Şəhərsalma sahəsində fəaliyyət göstərən aidiyyəti qurumlar - şəhərsalma komitələri, layihə institutları, "Azərdövlətlayihə", elmi-tədqiqat institutları, Memarlıq İttifaqı, eləcə də respublikamızın tanınmış memar və tikinti mütəxəssisləri tərəfindən keçirilən çoxsaylı memarlıq və şəhərsalma tədbirlərinə baxmayaraq, bəzi problemlərin hələ də diqqətdən kənarda qalması təəssüf doğurur.

Mən özüm də hesab edirəm ki, cəmiyyət olaraq bu məsələlərə qarşı daha həssas yanaşmalı və fikir bildirməkdən çəkinməməliyik. Əgər insanın qələmi əlindən alınmayıbsa, demək ki, sözünü demək və mövqeyini bildirmək məsuliyyəti də qalır. Bu baxımdan, aidiyyəti qurumlara və dövlət rəhbərliyinə müraciət etmək, ən azı vicdan qarşısında vətəndaşlıq borcunu yerinə yetirmək deməkdir.

Bu gün bir çox məsul şəxslərin şəxsi emalatxanaları var.



Əksər layihələrin və tikinti proseslərinin maliyyələşdirilməsi də məhz həmin çevrələr daxilində həyata keçirilir. Nəticədə, ictimai maraqlardan daha çox şəxsi qazanc prinsipi ön plana keçir. Bu vəziyyət bəzi hallarda digər sahələrdə, xüsusilə də dərman bazarında müşahidə olunan süni qiymət artımları ilə müqayisə edilə bilər.

Halbuki biz eyni torpaqda doğulmuş, eyni cəmiyyətin yetirdiyi insanlar olaraq daha böyük məsuliyyət hissi daşımalıyıq. Bu torpağın nemətlərindən istifadə etdiyimiz kimi, onun qarşısında mənəvi borcumuzun da fərqində olmalıyıq. Çünki son mənzildə hamımız eyni torpağa qovuşacağıq və həmin müqəddəs məkan qarşısında heç kimin üstünlüyü olmayacaq.

Şəhərsalma və tikinti məsələlərində də ciddi şəkildə düşünməyə ehtiyac var. Xüsusilə Bakı şəhərinin iqlim xüsusiyyətləri - yüksək temperatur, güclü Günəş radiasiyası, külək rejimi, aerodinamik xüsusiyyətləri və yüksək nisbi rütubəti nəzərə alınmadan çoxmərtəbəli yaşayış binalarının intensiv tikintisi gələcəkdə urbanistik və ekoloji problemlər yarada bilər. Rahat və sağlam şəhər mühiti yalnız hündür binalarla deyil, düzgün planlaşdırılmış memarlıq və insan amilinə əsaslanan yanaşma ilə formalaşır.

Mən öz həyatımda həm tənqid, həm də yüksək qiymətləndirmə görmüş bir insanam. Vaxtilə Heydər Əliyev adına İdman-Konsert Kompleksi ilə bağlı fəaliyyətimə görə keçmiş SSRİ rəhbərliyi tərəfindən töhmət almış, eyni zamanda Ulu Öndər Heydər Əliyevdən ən yüksək mükafatı almışam: **"Anasının südü Fəqan Əliyevə halal olsun"**. Bundan sonra hər hansı titul və ya mükafat arxasınca getməyi özümə məqsəd seçməmişəm.

Bu gün cəmiyyət olaraq daha çox bahalı geyimlərə, dəbdəbəli avtomobillərə, evlərə və bağlara maraq göstəririk. Lakin mənəvi dəyərlərimizi, milli mədəniyyətimizi və ziyalılarımızı bəzən lazımi səviyyədə qiymətləndirmirik.

Bir zamanlar Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Şəmsi Bədəlbəyli, Niyazi, Arif Məlikov, Leyla Bədirbəyli, Hökümə Qurbanova, Səttar Bəhlulzadə və Tahir Salahov kimi görkəmli şəxsiyyətlər milli mədəniyyətimizin və incəsənətimizin simvoluna çevrilmişdilər. Niyə ekranlarda görmürəm görkəmli alimlərimizi, həkimlərimizi? Bu gün də həmin potensial mövcuddur. İstedadlı gənclərimiz, alimlərimiz, həkimlərimiz və sənət adamlarımız aramızda yaşayır, ali məktəblərdə təhsil alır və böyük zəhmətlə yetişirlər. Təəssüf ki, bəzən onları görmək, tanıtmaq və dəstəkləməkdə yetərincə həssas olmuruq.

Məsələn, televiziya ekranlarında təqdim olunan caz konsertlərinin bütövlüyünün qorunması, musiqi konsepsiyasının düzgün təqdim edilməsi və sənətkar əməyinə ehtiram göstərilməsi vacibdir.

Tarix boyu cəmiyyətlərin inkişafına mane olan əsas problemlərdən biri daxili çəkişmələr, qısqanclıq və mənəvi zəiflik olmuşdur. Bununla yanaşı, xalqımızın içərisində hər zaman qeyrətli, savadlı və vətənpərvər oğul və qızlar yetişmişdir. Lakin milli birlik və mənəvi məsuliyyət hissinin gücləndirilməsi bu gün də əsas ehtiyaclardan biri olaraq qalır.

**Fəqan Əliyev,**
**Texniki elmlər doktoru,**
**Professor**



# Bakı Metropolitenin rəisi Vüsal Aslanovun bu çıxışı aləmi qarışdırdı

**...Bakı Metropolitenin rəisi Vüsal Aslanov TV-lərin birində qonaq olub və qəribə məntiqini qoyub ortaya. Deyib ki, əgər Bakının ətraf rayonlarında, məsələn, Mərdəkan, Binəqədi, Xəzər, Hövsan... ərazilərində metro stansiyası olsa, camaat Bakının mərkəzinə doluşacaq, sıxlıq yaranacaq... Sitat: "Binəqədi, Bakıxanov, Qaraçuxur, Yeni Yasamal kimi yerlərdə metro stansiyaları tiksək, həmin vətəndaşlar şəhərin mərkəzinə gəlməyə çalışacaqlar. Şəhərin mərkəzində onsuz da bizim mövcud olan və çox yüklənmiş infrastrukturumuz tamamilə iflic vəziyyətə düşə bilər".**

Hətta bəziləri FB-də ona dəstək verib yazır ki, müəllim düz deyir də, məsələn, Binəqədidə metro olsa, hamı kənddən gələcək "Torqovı"da çay içməyə, mərkəzdə basırıq olacaq...

***

Bəli, biz hələ də yetişməmişik. İnsanların azadlığını, sərbəst yaşamaq, gəzmək... hüququnu gör necə məhdudlaşdırmaq istəyirlər... Ərəblər "Torqovı"ya metro ilə gəlirlər??? Bakı Metropoliteninin rəisi Vüsal Aslanovun bu məntiqi, daha doğrusu, məntiqsizliyi sosial mediada sərt tənqid edilib... Qadir Həzi yazır: **"...Mənim də cənab V.Asalanova balaca bir təklifim var. Cənab V.Aslanov, yaxşı olmazdımı, söylədiyiniz və söylədiyiniz Bakıətrafı əraziləri hasara alıb post qurasız? Buraxılış saatı tətbiq edərsiniz. Bununla da şəhərin mərkəzini kənarda yaşayanlardan qoruyar və məhdud infrastrukturdan rahatlıqla isifadə edə bilərsiniz. Bu, sadəcə təklifdir, nəzərə almaya da bilərsiz".**

Ruslan adlı şəxs yazır: **"Rəis elə bilir ki, əgər metro stansiyası yoxdursa, deməli, Binəqədi, Bakıxanov, Qaraçuxur, Yeni Yasamal sakinləri şəhərin mərkəzinə gəlmirlər. Adam Bakını Lük Bessonun "13-cü kvartal" filmindəki kimi gettolara bölünmüş təsəvvür edir. Cənab rəis, metro oldu-olmadı, həmin insanlar onsuz da şəhərin mərkəzinə gəlirlər və gəlməlidirlər... Sadəcə, daha əziyyətlə: yaxın metro stansiyasına qədər avtobusla, "manatlıq taksi" ilə çatır, sonra metro ilə yollarına davam edirlər".**

***

Sosial media istifadəçisi Zülfiyyə Quluyeva isə daha maraqlı fakt deyir: **""Müəllim" elə hesab edir ki, Binəqədidə yaşayan insanlar metro olarsa əylənmək, alış-veriş etmək, bulvarda gəzib dolaşmaq üçün şəhərin mərkəzinə gələ bilərlər. Onu düşünmür ki, belə asudə vaxta sahib adamların Binəqədidə nə azarı var? Bakı ətrafında yaşayan insanların çoxu dolanışıq üçün şənbəbazar da işləyir... Sadəcə, adam düşünür ki, bu ağılla, dərrakə ilə bu məllim nətər gəlib o vəzifəyə? Hələ bəlkə də bu kəlmələri dərindən düşünüb deyib. Gör hələ mikrafon, kamera olmayanda bu nə danışır...".**

Çoxsaylı şərhlərin müəlliflələri rəisin bu məntiqsiz fikirlərini sərt tənqid etməkdədir...

***

Bəli, insanlar metro oldu-olmadı, öz şəhərinə gəlməli, gəzməlidir... Bu hüququ Konstitusiyamız verib, kimsə onu məhdudlaşdıra bilməz... Başqaları-əcnəbilər Bakının mərkəzinə gələ bilər, amma Bakıda yaşayanlar yox???

**A.Məmmədli**

# "Uğur 777 estetik mərkəz"in işi məhkəmədə-görün nələr var imiş!



**Uzun istintaq araşdırmalarından sonra "UĞUR 777 estetik mərkəz"də yol verilən qanunsuzluqlarla bağlı başlanılan cinayət işi üzrə təqsirləndirilən Xəyalə İsmayılova, Murad Bağırov və Rəsmiyə Quliyevanın məhkəməsi başlayıb. Tezadlar.az xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fəxri Məmmədovun sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxslərdən birinin vəkili iştirak etməyib. Proses mayın 12-nə təxirə salınıb.**

**Qeyd:** ötən ilin dekabrında bir qrup şəxs tərəfindən qanunsuz olaraq estetik əməliyyatların aparılması barədə mediada yayılan məlumat və videogörüntülər əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar İdarəsində araşdırma aparılıb. Araşdırma zamanı Xəyalə İsmayılovanın adına dövlət qeydiyyatına alınan, "UĞUR 777 estetik mərkəz"in qanunsuz fəaliyyət göstərməsi, orada müvafiq standartlara riayət edilmədən tibbi prosedur adı altında müxtəlif estetik əməliyyat və kosmetoloji prosedurların icra olunması nəticəsində xəstəliklərin yayılmasına əsaslı şübhələr müəyyən edilib. Həmçinin sözügedən mərkəzdə özlərini həkim-kosmetoloq kimi təqdim edən Xəyalə İsmayılova, Murad Bağırov, Firuzə Əliyeva, Gülbədə Abdullayeva, Zairə Salmanova və digərləri tərəfindən ayrı-ayrı şəxslərin bədən nahiyələrində icra olunan estetik cərrahi əməliyyatlar nəticəsində onların sağlamlığına ağır xəsarət yetirilməsinə əsaslı şübhələr müəyyən edilib. Araşdırmalar nəticəsində o da aşkarlanıb ki, Xəyalə İsmayılova, Murad Bağırov, Firuzə Əliyeva, Gülbədə Abdullayeva, Zairə Salmanova və digərlərinin müvafiq ali və ya orta ixtisas tibbi təhsili, habelə "Praktik tibb fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsi" yoxdur. Toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 131.2 (ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma), 309.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərini aşma), 314.2-ci (ağır nəticələrə səbəb olan səhlənkarlıq) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması üçün aidiyyəti üzrə Bakı şəhəri Nəsimi rayon prokurorluğuna göndərilib. Eyni zamanda, Xəyalə İsmayılovanın barəsində İnzibati Xətalar Məcəlləsinin 210.1 (lisenziya olmadan özəl tibbi fəaliyyətlə məşğul olma) və 215.1-ci (sağlamlığın qorunması sahəsində şəxslərin hüquqlarının pozulması) maddələri ilə inzibati xəta haqqında işlər üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə göndərilib.

Məhkəmə bu və ya digər suallara aydınlıq gətirəcək.

# London məhkəməsi Deputat Cavanşir Feyziyevin bu mülklərini müsadirə etdi



**...Milli Məclisin deputatı Cavanşir Feyziyevin Londonda aldığı mülklərin London Ali Məhkəməsinin qərarı ilə dondurulması barədə tezadlar.az portalında araşdırmaçı jurnalist Cavanşir Həsənliyə istinadla məlumat vermişdik. Aşağıda məhkəmə qərarında göstərilmiş həmin mülklərin siyahısını təqdim edirik:**

1. Ailə evi (Family Home)
Ödəmə tarixi 06.10.2008 / 04.11.2013
Alış qiyməti ?2.1 mln + ?1.89 mln
2 Cavendish House - Mənzil 13
15.02.2013-də alınıb
Alış qiyməti ?318 500
3 Cavendish House - Mənzil 14
15.02.2013
Alış qiyməti ?318,500
4. Goldhawk House - Mənzil 51
17.10.2016
509,950
5 Goldhawk House - Mənzil 52
17.10.2016
374,950
6. Goldhawk House - Mənzil 63
17.10.2016
514,950
7. Goldhawk House - Mənzil 65
17.10.2016
503,452
8. Golding House - Mənzil 39
17.05.2017
492,952
9. Golding House - Mənzil 41
01.12.2016
489,202
10. Golding House - Mənzil 42
09.01.2017
493,952
11. Golding House - Mənzil 51
17.05.2017
498,702
12. Golding House - Mənzil 53
13.02.2017
459,952
13. Golding House - Mənzil 54
13.02.2017
498,702
14. Golding House - Mənzil 65
15.02.2017
503,452
15. Golding House - Mənzil 67
28.02.2017
498,702
16. Golding House - Mənzil 68
23.02.2017
503,452
17. Argent House - Mənzil 45
04.10.2018
531,335
18. Argent House - Mənzil 46
04.10.2018
531,335
19. Argent House - Mənzil 55
04.10.2018
536,038
20. Argent House - Mənzil 56
04.10.2018
536,038
21. Whistler Square - Mənzil 30 (8 Whistler Square)
27.01.2020
?18,400,000
22. Whistler Square - Mənzil 23 (8 Whistler Square)
20.12.2019
?8,100,000

Sonuncu iki mənzil (18,4 və 8,1 milyon dəyərində) Cavanşir Feyziyevin öz adınadır.

(Mənbə: İngiltərə Ali Məhkəməsi İstinad nömrəsi: [2024] EWHC 501 (Admin)
İş nömrəsi: AC-2023-LON-001768).

## Bu da həmin deputatın maliyyə "deklorasiyası"

**Deputat Cavanşir Feyziyev haradan və nə qədər qazanc əldə edib? Araşdırmaçı jurnalist Cavanşir Həsənli bu suala da cavab tapıb. Təqdim edirik:**

"İngiltərə Ali Məhkəməsinə (İstinad nömrəsi: [2024] EWHC 501 (Admin), İş nömrəsi: AC-2023-LON-001768) cavabdeh tərəf kimi Cavanşir Feyziyevin təqdim etdiyi gəlir məlumatlarına əsasən(məhkəmə ifadəsi), o, 1987-ci ildə tərcümə şirkəti yaradıb, 1990-cı illərdə Philip Morris ilə işləyib.

Əsas gəlir mənbələri:

1. Planet Co. (1998)-Alman tütün şirkətinin eksklüziv distribyutoru olub, 2000-2002 arası: 12 milyon dollar dividend əldə edib.

2. Payların satışı: distribyutorluq hüquqlarını satıb
2002-2016 arası böyük komissiyalar qazanıb

3. "Avromed" şirkəti: əvvəl satış meneceri, sonra direktor olub, 2006-da isə səhmdar olub, 2010-da deputat seçildiyi üçün vəzifədən ayrılıb.
İddiasına görə: 2006-2016 arası 49 milyon dollar dividend əldə edib.

4. Turizm biznesi (Tour Invest)
əlavə olaraq: 7.5 milyon dollar gəlir.

5. Daşınmaz əmlak investisiyaları (Azərbaycanda)
20 milyon dollardan çox kapital qazancı,
əlavə 3 milyon dollar gəlir...".

**Keçək mətləbə: dələduzluq əməlinə görə “Yeni Yasamal” MTK-nın rəhbəri Cahangir Alışov həbsxana həyatı yaşasa da, bu da dərs olmayıb və indi də oğlu Sadiq Alışov da atasının yolunu davam etdirir, bir qeyri yaşayış sahəsini 4 nəfərə satıb, iş məhkəmə və istintaq orqanlarında araşdırılır... Elə “Təzadlar” qəzeti redaksiyasına Bakı şəhər sakini İslam Məmmədov da fəryad dolu müraciətini bizə təqdim etdi. İ.Məmmədov Baş Prokuror Kamran Əliyevə, daxili işlər naziri Vilayət Eyvazova, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayevə, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi cənab Nazim Rəcəbova və surəti “Təzadlar” qəzetinin redaksiyasına ünvanlanan müraciətində durduğu yerdə dələduzluqla rastlaşdığını yazıb. Məlum olur ki, Bakı şəhərində yerləşən “Yeni Yasamal” MTK və onun ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən İ.Məmmədovun başına açılan müsibətlərin sərhədi yoxdur. Müraciəti oxuduqca dəhşətə gəlirsən ki, mütəşəkkil dəstə hansı oyunlardan çıxır. Bu insanlar heç bir qanun tanmırlar. Məhz belə qanunsuz əməllərinə görə “Yeni Yasamal” MTK-nın rəhbəri Cahangir Alışovun həbsdə olmasına baxmayaraq, indi də oğlu Sadiq Alışov atasının yolu ilə gedərək eyni əməlləri heç nədən çəkinmədən rahatlıqla davam etdirir.**

# “Yeni Yasamal” M
# fırıldaqları ş

## Cavabdehlərin yalanı ayaq tutur, amma hələ ki, yerimir...

...Redaksiyamızda olarkən İslam Məmmədov bizimlə söhbətində ürək yanğısı ilə bildirdi ki, onun etibarından sui-istifadə edərək, “Yeni Yasamal” MTK-nın rəhbərliyi və onun əlbir olduğu mütəşəkkil dəstə 135 min manat nəğd pulunu mənimsəyib. O, MTK-ya məxsus binadakı qeyri-yaşayış sahəsini almaq üçün əlbəəl 130 min manat nəğd pul ödədiyi Rasim Abbasquliyevdən neçə vaxtdır pulunu geri ala bilmir.

Yaxşı olar ki, əvvəlcə İ.Məmmədovun güc strukturlarının rəhbərlərinə və redaksiyamıza ünvanlanmış müraciəti ilə tanış olaq:

**“Azərbaycan Respublikasının Baş Prokuroru Cənab Kamran Əliyevə!**

**Azərbaycan Respublikasının daxili işlər naziri Cənab Vilayət Eyvazova!**

**DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Cənab Əbülfət Rzayevə!**

**Baş Prokuror yanında Korrupsiya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Cənab Nazim Rəcəbova!**

**Surəti: “Təzadlar” qəzeti redaksiyasına!**

**Bakı şəhər sakini Məmmədov İslam Balababa oğlu, vəkili və nümayəndəsi Babayeva Xəyalə Rizvan qızı tərəfindən**

**Müraciət**

**Hörmətli cənablar!**

Sizi məlum edirəm ki, tanışım Əhmədov Səbuhi Etibar oğlu “Yeni Yasamal” MTK tərəfindən tikilən binanın birinci mərtəbəsindəki qeyri-yaşayış sahəsinin təcili, bazar qiymətindən də aşağı qiymətə satıldığını mənə bildirdi. Səbuhi məni həmin qeyri-yaşayış sahəsini faktiki “obyekt” kimi işlədən Abasquliyev Rasim Talıb oğlu ilə tanış etdi. Bundan sonra biz Rasimlə birgə “Yeni Yasamal” MTK-nın Yasamalda olan ofisinə getdik. Ofisdə özünü bizə MTK-nın rəhbəri kimi təqdim edən Alışov Sadiq Cahangir oğlu ilə görüşdük. Alışov Sadiq obyekti xeyli tərifləyəndən sonra bildirdi ki, obyektin mənə deyilən satış qiymətindən əlavə, 5000 (beş min) AZN də ödəməliyəm ki, birdəfəlik sahibi olum. Əvvəlcə götür-qoy etdim, sonra Alışov Sadiq Cahangir oğlu ilə razılaşdım və həm Rasimi, həm də




“Yeni Yasamal” MTK-nın tikilməkdə olan binasının 1 mərtəbəsində yerləşən 120 kvadrat metr qeyri-yaşayış sahəsini Rasim Abasquliyevə 130.000 (yüz otuz min) manat nəğd pul verərək aldım

Səbuhini bu sövdələşmə ilə yenidən məlumatlandırdım. İkisi də bildirdi ki, uduzmazsan, təcili al. Beləliklə, 2021-ci ildə aramızda müqavilə bağlandı. Mən rusdilli olduğum üçün müqaviləni oxumadan imzaladım. Çünki Səbuhi ilə çox etibar etdiyim dostlarım vasitəsilə tanış olmuşdum və nə vaxtsa məni aldada biləcəyini ehtimal etmirdim, ona etibar edirdim. Sonradan vəkilim müqavilə ilə tanış olarkən aldadıldığımı, müqavilənin imzalanma tarixinin 16 sentyabr 2017-ci il olduğunu və müqavilənin MTK-nın həmin dövr üçün həbsdə olan rəhbəri Alışov Cahangirin adına bağlanıldığını bildirdi. Halbuki sonradan əldə etdiyim məlumata əsasən, MTK-nın möhürü 2017-ci ildə polisə təhvil verilmişdir. Şirkətlə həmin müqavilə faktiki olaraq 2021-ci ildə bağlansa da, “Yeni Yasamal” MTK -nın həmin dövrdə həbsdə olan rəhbəri Alışov Cahangirin (deyirlər hazırda azadlıqdadır və bu barədə sonradan məlumatlı olmuşam) oğlu Sadiq Alışov Yasamal ərazisində olan ofisində (həm Rasimin, həm Səbuhinin, həm də özünü köməkçi və mühasib kimi təqdim edən Samir Baxşəliyevin iştirakı ilə) görüşəndə, Sadiq Alışov məndən əlavə 5000 (beş min) AZN alarkən, bildirdi ki, nə vaxtsa heç kim məndən müqavilə ilə bağlı mübahisə edə bilməsin, məsələ artıq birdəfəlik həll olunur.

**Hörmətli cənablar!**

Beləliklə, Bakı şəhəri, Yasamal rayonu, M.Xiyabani küçəsində yerləşmiş “Yeni Yasamal” MTK-nın tikilməkdə olan binasının 1 mərtəbəsində yerləşən 120 kvadrat metr qeyri-yaşayış sahəsini Rasim Abasquliyevə 130.000 (yüz otuz min) manat nəğd pul verərək aldım. Mənim tərəfimdən həmin pul maliyyə arayışına əsasən Kərimov Şakir Məmməd oğluna ödənilmiş kimi görünsə də, lakin mən 130.000 (yüz otuz) min manat pulu nağd şəkildə həmin Şirkətin rəhbərinin oğlu Alışov Sadiq Cahangir oğlunun yanında, onun həmin qeyri-yaşayış sahəsini etibarnamə ilə verdiyi Abbasquliyev Rasim Talıb oğluna vermişəm. Çünki Sadiq mənə bildirdi ki, Kərimov Şakirlə Abasquliyev Rasim arasında olan razılaşmaya əsasən Şakir tərəfindən 2019-ci ildə həmin qeyri -yaşayış sahəsi Rasimə 90.000 (doxsan min) manata verilmişdir, Şakir bundan sonra Rasimə baş etibarnamə vermişdir. Bu səbəbdən də 130.000 (yüz otuz) min manat pulu faktiki olaraq Abasquliyev Rasimə ödəmişəm. Lakin 02 may tarixində Yasamal Rayon İcra şöbəsinin məmuru tərəfindən mənə zəng olunaraq bildirildi ki, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası Bakı şəhəri 2(103)-3391/2022 31.08.2022-ci il tarixli Qətnaməsi ilə həmin qeyri-yaşayış sahəsi daha əvvəl digər şəxsə satılıb və məhkəmə qaydasında həmin insanın ora sahiblik və istifadə hüququ tanınıb. O mənə həmin sahəni təhvil verməli olduğumu

## Yaxud, “ataların yolu oğulların yoludur” üsulu ilə törədilən qanunsuz əməllər...

bildirdi. Bundan sonra narahat olub şirkət barədə araşdırma apardıqda məlum oldu ki, həmin MTK-nın rəhbəri olmuş Cahangir Alışov mənim kimi bir mənzili bir neçə nəfərə satmış və insanları aldadaraq vəsaitlərini mənimsəməsi səbəbilə barəsində cinayət işi açılmış və məsuliyyətə cəlb olunmuşdur, azadlıqdan məhrum edilmişdir. Hal-hazırda isə oğlu Sadiq Alışov atasının törətdiyi qeyri-qanuni əməlləri “yüksək səviyyədə” davam etdirir. Belə ki, Yasamal ərazisində yerləşən özünə məxsus ofisində insanları aldadaraq, köhnə tarixlə müqavilə imzalayır və qeyri - yaşayış sahəsini bir neçə şəxsə satmaqla növbəti qanunsuz əməlini törətməkdə davam edir. Bütün baş verənlərə görə yuxarıda adları çəkilən şəxslərlə görüşdüyüm zaman bildirdilər ki, qısa zamanda qeyri-yaşayış sahəsinə ödədiyim pulu -135(yüz otuz beş min) manatı mənə qaytaracaqlar. Bu görüş və razılaşma əvvəllər MTK-da menecer, mühasib, köməkçi işləmiş Samir Baxşəliyevin də iştirakı ilə olmuşdur, o Sadiq Alışovu təmsil etdiyini və bu kimi işləri həll etdiyini bildirərək, görüşə gəlsə də, sonradan hadisələrin necə olduğunu etiraf etmək üçün aramızda imzaladığımız aktdan (əlavə edirik) imtina etmişdir. Bundan sonra Sadiq Alışov mənimlə telefon danışığı zaman bildirdi ki, onun 3 vəkili var, get kimə necə istəyirsən şikayət elə. Mən də dövlətimizin qanunlarına güvənərək, insanların etibarından sui-istifadə etməklə pullarını mənimsəyib sadə vətəndaşlara qarşı dələduzluq və digər cinayətləri törədən şəxslərin tezliklə cəzalanacağını, həmçinin mənə dəymiş maddi ziyanın geri qaytarılmasını, bununla bağlı bütün hüquqi tədbirlərin görülməsini Sizdən xahiş edirəm. Belə ki, mənə qarşı törədilən dələduzluq və digər cinayətlərin araşdırılmasını, Alışov Sadiq Cahangir oğlunun AR CM-nin 178.3-cü maddəsi ilə barəsində həbs qətmkan tədbiri seçilməklə məsuliyyətə cəlb olunmasını bir daha xahiş edirəm. Həmçinin mənə sənədləri saxta olan qeyri-yaşayış sahəsini satmış Abasquliyev Rasim Talıb oğlunun, bu işdə iştirakçı olan Səbuhi Əhmədovun, Şakir Kərimovun, Samir Baxşəliyevin əməlində cinayət tərkibinin müəyyən olunduğu nəzərə alınaraq onların cinayət məsuliyyətinə cəlb olunmasını, mənim zərərçəkmiş kimi tanınaraq, 135 (yüz otuz beş) min manat nəğd pulumun geri qaytarılmasını xahiş edirəm. İnanıram ki, bu mütəşəkkil dəstə layiq olduğu cəzalarını alacaq.

**Əvvəlcədən hər birinizə dərin təşəkkürümü bildirirəm!**

**Hörmətlə,**

**İ.B.Məmmədov və iş üzrə vəkil və nümayəndə Xəyalə Babayeva”.**

## Jurnalist araşdırması zamanı inanılmaz yalanlar və qanunsuz əməllər üzə çıxdı...

**“Media haqqında” Qanunun** tələblərinə uyğun olaraq, adları çəkilən şəxslərin də əks tərəf kimi mövqeyini öyrənmək istədik. Bu məqsədlə obyekti sonuncu dəfə şikayətçi İ.Məmmədova sataraq 130 min manat nəğd pulunu alan Rasim Abasquliyevlə telefon əlaqəsi saxladıq... R.Abasquliyev söhbətində gözəllik salonunu satdığı İ.Məmmədovdan 130 min manat pul aldığını etiraf etdi... R.Abasquliyev onu da qeyd etdi ki, indi həmin pulu qaytarmağa qəti imkanı yoxdur. Belə olan surətdə təklif etdik ki, mümkünsə, redaksiyamıza gəlsin və şikayətçi ilə birlikdə bu barədə bir az ətraflı söhbətimiz olsun.

# MTK sədrinin sərhəd tanımır

### *İslam Məmmədov:* "Rasim, sən "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq və Şakir Kərimovu məhkəməyə, polisə, prokurorluğa verməsən, deməli, onlarla əlbirsən..."




**Sonra şikayətçi İ.Məmmədovu da redaksiyaya dəvət etdik... Redaksiyamızda çox gərgin müzakirə getdi, bir sıra məsələlərə aydınlıq gətirildi. R.Abasquliyev dəfələrlə etiraf edərək bildirdi ki, bəli, gözəllik salonunu İ.Məmmədova 130 min manata satıb, amma onu da əlavə etdi ki, o, bu obyekti Şakir Kərimov adlı şəxsdən alıb, sonuncu onu aldadıb, sənədsiz obyekti satıb.**

Amma soruşduqda ki, siz obyektin sənədsiz olduğunu bildiyiniz halda, niyə onu İslam Məmmədova satırdınız, bu sual cavabsız qaldı.

Müzakirə zamanı o da məlum oldu ki, obyektin Vüqar adlı daha bir sahibi də varmış. Bu məsələ isə Yasamal rayonu, İcra və Probasiya Şöbəsindən İ.Məmmədova gələn zəngdən sonra məlum olub. İcra şöbəsindən bildirilib ki, obyektin birinci və əsl sahibi Vüqar adlı şəxsdir, onun mülki hüquqları məhkəmə yolu ilə tanınıb və gözəllik salonunun hüquqi və qanuni sahibi də odur. Bu səbəbdən də İ.Məmmədov obyekti təhvil verməli və oranı tərk etməlidir. İşi belə görən İ.Məmmədov da haqlı olaraq, şikayət ərizəsində yazdığı kimi, R.Abasquliyevdən verdiyi 130 min manatı, "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq Cahangir oğlundan isə sənədləşmə üçün verdiyi 5 min manat pulu geri tələb edir.

Bu zaman R.Abbasquliyev daş atıb başını tutdu ki, o pulu verməyə heç bir imkanı yoxdur, o, MTK rəhbərliyinin əməllərindən artıq polisə şikayət edib. Amma sonradan məlum oldu ki, polisdə belə bir şikayət ərizəsi yoxdur və s.

***

Söhbətin gedişində o da aydın oldu ki, İ.Məmmədovun şikayəti əsasında R.Abasquliyev bir neçə dəfə bu iş üzrə polis orqanları tərəfindən istintaqa cəlb edilib, hətta MTK rəhbərliyinin işi üzrə DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs edilib, müxtəlif müddətlərə saxlanılıb. Hətta 2 həftə Kürdəxanıdakı istintaq təcridxanasında da qalmalı olub, sonra isə azad olunub. Bəs bu necə baş verib - deyə soruşduqda, R.Abasquliyev belə aydınlıq gətirdi: "MTK-nın işi üzrə 1-ci dəfə 2 həftə saxlanılmışam... Sonra aydın etdilər ki, mənim heç bir günahım yoxdur. Müstəntiq bildirdi ki, mən özüm də zərərçəkənəm. Məni də aldadıb sənədsiz obyekti satıblar".

**R.Abasquliyevə belə bir sual verməli olduq:**

**-Rasim bəy, əgər sənin həbsin qanunsuz idisə, niyə azad olunandan sonra həbsinə qərar verən müstəntiqi və ya sanksiyanı imzalamış prokuroru məhkəməyə verib, təzminat istəmədin?**

-Mənim belə şeylərdən başım çıxmır...

**-Yaxşı, sənin başın çıxmırsa, o dediyin vəkilin bunu eləməli idi... Bu sözlərinə inanmaq istəmirəm. Nə isə... Yaxşı, tutaq ki, bu obyektin sənədi yoxdur və aldanmısan. Bilə-bilə ki, bu obyektin sənədi yoxdur, bəs niyə onu sənədsiz halda İ.Məmmədova satmısan? Və yaxud, satanda niyə İ.Məmmədova obyektin sənədsiz olması barədə məlumat verməmisən?**

*Suala R.Abbasquliyev belə cavab verdi:*

*-Mən də obyekti İ.Məmmədova satanda sənədsiz olduğunu bilməmişəm...*

**- Rasim bəy, qəbul edək ki, alanda, satanda obyektin sənədsiz olduğunu bilməmisən. Hərçənd, bu inandırıcı görünmür. Bəs onda niyə obyekti sənə satan Şakir Kərimova verdiyin 90 min manatı hüquqi yollarla tələb etmirsən? Və yaxud, sizin hamınızı aldadan "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq Cahangir oğlundan hüquq mühafizə orqanlarına şikayət vermirsiniz?**

*-Vermişəm. Vəkilim bu barədə daha məlumatlıdır.*

**Bu məqamda şikayətçi İ.Məmmədov belə reaksiya verdi:**

*-Əgər sən Şakiri və "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq Cahangir oğlunu məhkəməyə, prokurorluğa, polisə vermisənsə, onda səni də zərərçəkən kimi tanımalı idilər... Yox, əgər verməmisənsə, onda bu dələduzluqda onlarla əlbirsən...*

R.Abbasquliyev dərhal cavab verdi ki, onları məhkəməyə vermişik: **"Hətta vəkilimlə də bu barədə danışa bilərəm ki, jurnalistə məlumat versin...".**

Biz də "etibar elə və yoxla" prinsipi ilə ondan vəkilin telefon nömrəsin istədik ki, bir az ətraflı məlumat öyrənə bilək. Rasim bəy bildirdi ki, problem yoxdur, vəkilin özü ilə danışıb, nömrəsini sizə verərəm...

*Sonra Rasim bəyə belə sual da verdik:*

**-Rasim bəy, bəlkə problemin həlli üçün razılığa gəlib ortaq məxrəc tapasınız, şikayətçi də hüquqi yollara əl atmasın...**

-Əvvala, hazırda heç cürə pul verə bilmirəm, olsa verərdim... Amma belə də, onsuz da İslam müəllim bir çox yerlərə şikayət edib. Gəlib tutub aparırlar. Hər dəfə də pul verib çıxıram...

**-Rasim bəy, həbsdən çıxmaq üçün verdiyin pulu elə bu İ.Məmmədova versəydin daha yaxşı olmazdımı?**

-Mənim İslam müəllimə vermək üçün o qədər pulum yoxdur. Mən üzlük daşların istehsalı ilə məşğulam. Mənə imkanlı müştərilər göndərin, qazancım bir az çox olsun ki, mən də İslam müəllimin pulundan yavaş-yavaş qaytarım. Bəlkə iş çox olar, onda pulun hamısını birdən qaytararam. Hazırda isə, o 130 min manatı qaytarmağa imkanım yoxdur. Əgər Şakir Kərimov pulumu qaytarsa, mən də İslam müəllimin pulunu verərəm...

***

...Rasim Abasquliyev və İslam Məmmədovla bir xeyli müzakirələr apardıq. İ.Məmmədov qətiyyətlə bildirdi ki, **"Rasim, mən 130 min manat pulu sənə vermişəm və səndən də geri qaytarılmasını tələb edirəm. Xahiş edirəm mənim bu müraciətimi saytınızda və qəzetinizdə dərc edib aidiyyəti qurum rəhbərlərinin diqqətinə çatdırasınız. Qoy, hüquq-mühafizə orqanları qanuni tədbirlər görsünlər...".**

Maraqlıdır ki, R.Abbasquliyev vəkilinin adını belə bilmədi. Söz verdi ki, öyrənib deyəcək.

Bəli, görüşümüzün səhəri günü İ.Məmmədovun **vəkili Xəyalə Babayeva** ilə xeyli söhbət etdik və bütün qanunların İslam Məmmədovun tərəfində olduğunu birmənalı şəkildə bildirdi. Verdiyimiz əlavə suallara da hərtərəfli və dolğun cavab verdi. Amma R.Abbasquliyevlə 10 gün ərzində nə qədər danışsaq da, nə vəkilin adını dedi, nə də telefon nömrəsini verdi. Gah dedi vəkil xəstədir, gah dedi ki, xaricdədir. Nəhayət, Rasim bəy sonda belə bir məlumat verdi: "Vəkil deyir ki, artıq "Yeni Yasamal" MTK-nı və Şakir Kərimovu məhkəməyə verib".

Bu dəfə xahiş etdik ki, onda iddia ərizəsinin surətini redaksiyaya göndərin... Məlum oldu ki, iddia ərizəsinin surəti guya onda yoxdur və belə şeylərdən onun başı çıxmır... Cavab olaraq bildirdik ki, onda iddia ərizəsinin surətini vəkildən alıb göndər, ya da vəkil bizimlə danışsın və lazım olan suallarımıza ondan cavab alaq. Yenə də söz verdi... Bir neçə gün də belə keçdi.

Nəhayət, Rasim bəy bildirdi ki, "adını bilmədiyi" vəkili telefon nömrəsinin redaksiyanın əməkdaşına verilməsini qətiyyən istəmir. Bu dəfə isə guya vəkil bildirib ki, "Yeni Yasamal" MTK-nı və Şakir Kərimovu Yasamal polisinə verib... Necə deyərlər, "yalançını son mənzilinə kimi" prinsipi ilə soruşmalı olduq:

**-Ay Rasim bəy, siz vəklinizlə bir yerdə, "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq və Şakir Kərimovu məhkəməyə vermisiniz, yoxsa polisə? Axı neçə gündü vəkilin adından deyirsən ki, onları məhkəməyə vermişik. İndi də deyirsiz, yox, polisə vermişik. Bunun hansına inanaq? Axı biz araşdırma yazısını tamamlamalıyıq, bizim peşə fəaliyyətimizə süni əngəllər yaradırsınız...**

-Yox, mən səhv etmişəm, dəqiq deyirəm ki, polisə vermişik: "Hər şeyi Yasamal Polis İdarəsinin müstəntiqi Ceyhun müəllim bilir. Ondan soruşa bilərsən".

Xahiş etdik ki, o müstəntiqin telefon nömrəsini versin ki, əlaqə saxlayaq... Çünki şikayət veribsə, deməli, müstəntiqlə təmasda olub... Nə qədər qəribə olsa da, bu dəfə cavab verdi ki, müstəntiqin nömrəsini bilmir: "Bilmirəm, siz jurnalistsinizsə, özünüz axtarıb müstəntiqin nömrəsini tapmalısınız".

İlk gündən bir düz sözü olmayan R.Abasquliyevə jurnalist olduğumuzu sübut etmək üçün müstəntiq Ceyhun müəllimin telefon nömrəsini çətinliklə də olsa, tapdıq. Ceyhun müəllim çox anlayışla qarşıladı və suala cavab olaraq belə dedi: "O "MTK işi" ilə bağlı məlumatım var. Amma dediyin Rasim Abasquliyev və onun hər hansı vəkili tərəfindən "Yeni Yasamal" MTK və Şakir Kərimov barəsində Polis İdarəsinə heç bir şikayət daxil olmayıb və məndə də elə bir cinayət işi yoxdur".

Müstəntiq Ceyhun müəllimə təşəkkür edib, dərhal R.Abasquliyevə zəng edərək, istinad etdiyi müstəntiqin fikirlərini ona çatdırdıq. Deyəsən, daş qayaya tuş gəlmişdi... Bu dəfə isə bildirdi ki, bunların hamısını "adını bilmədiyi" vəkili bilir.

***

**...Artıq Rasim Abasquliyevin yalanları ortada idi. Ona görə də şikayətçi İ.Məmmədov redaksiyamızda görüşəndə haqlı olaraq demişdi ki, "Rasim, sən "Yeni Yasamal" MTK-nın rəhbərinin oğlu Alışov Sadiq və Şakir Kərimovu məhkəməyə, polisə, prokurorluğa verməsən, deməli, onlarla əlbirsən...".**

Artıq bu sözlərə inanmaqdan başqa çarəmiz qalmamışdı. Belə olan surətdə Rasim bəyə təkrarən zəng edib bunları dedik: "...Rasim bəy, bu qədər araşdırmalardan sonra hər şey artıq ortadadır və biz sənin yox, İ.Məmmədovun aldadıldığını gördük. Amma biz hüquq-mühafizə orqanı deyilik ki, kimisə yol verdiyi qanunsuzluğa görə cəzalandıraq. Biz jurnalist olaraq hər iki tərəfin mövqeyinə aydınlıq gətirdik. Sənin mövqeyin də tam məlumdur və fikirlərini olduğu kimi dərc edəcəyik".

Bu yerdə R.Abbasquliyev məni hədələdi ki, heç kim mənim adımı, heç yerdə çəkə bilməz. Ona ... sonra isə təhqirlər...

Bəli, "Media haqqında" Qanunun tələblərinə uyğun olaraq adı çəkilən şəxslərin mövqeyini öyrəndik və olduğu kimi təqdim edirik... Amma "Yeni Yasamal" MTK-nın rəhbəri, qanunsuz əməllərinə görə həbsdə olmuş Cahangir Alışovun 050-212-94-XX telefon nömrəsinə, atasının yolunu "uğurla" davam etdirən oğlu Alışov Sadiqin 051- 801-11-XX nömrəsinə, köməkçi və mühasib sayılan Samir Baxşəliyevin 055-360-00-XX, Şakir Kərimovun 050-734-76-XX: 055-336-16-XX nömrəli telefonlarına dəfələrlə, günlərlə zəng etsək də, hamısı bağlı göstərirdi. Bəlkə də onlar nömrəmizi görürdülər, amma açmırdılar. Hər-halda, əlaqə yaratmağa cəhd etdik, lakin zənglərimizə cavab vermədilər. Eybi yox, inanırıq ki, mütəşəkkil dəstə olaraq törətdikləri qanunsuzluqlara görə hüquq-mühafizə orqanlarının zəng və çağırışına mütləq cavab verəcəklər.

**Araşdırmalarımız davam edir, yazının ardı olacaq.**

**"Təzadlar"ın Araşdırma Qrupu**

**P.S.Azərbaycanın fərqli media orqanlarında axtarış verərkən məlum oldu ki, bu MTK-nın rəhbərliyinin qanunsuzluqları həm də neçə illər əvvələ gedib çıxır, amma təəssüflər olsun, hüquq-mühafizə orqanları belə MTK rəhbərlərinə qarşı daha sərt tədbir görmür...**

# "Cənab Baş Prokuror, Sabuncu rayon prokuroru niyə oğru və dələduzları cəzalandırmaq istəmir???"

**İş adamı, sahibkar İsmayılov Ağasəf İslam oğlu yenidən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə müraciət ünvanlayıb. O, Sabunçu rayon Prokurorluğunda başına gətirilən süründürməçilik, təhdid, təzyiqlərdən, qanunlara hörmətsizlikdən Baş prokurora yazaraq kömək istəyir.**

**Surəti "Təzadlar" qəzeti redaksiyasına göndərilən şikayət-müraciəti təqdim edirik:**

**"Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevə!**

**210050957 saylı cinayət işi üzrə zərərçəkmiş şəxs İsmayılov Ağasəf İslam oğlu tərəfindən**

**M Ü R A C İ Ə T**

**(210050957 saylı cinayət işi üzrə qanun pozuntuları barədə)**

**Hörmətli Cənab Baş prokuror,**

Təsisçisi olduğum "Magna Trans" MMC-nin əmlakının və pullarının, o cümlədən dövlət büdcəsinə ödənilməli olan külli məbləğdə pul vəsaitinin bir qrup şəxs tərəfindən mənimsənilməsinə dair, 2021-ci ildə Sabunçu RPİ-nin İstintaq şöbəsində başlanılmış və ancaq mənim zərərçəkmiş şəxs kimi tanındığım, 210050957 saylı cinayət işi, mənimsəmə cinayəti ilə (CM 179.3.2.), davam etdirilməsi üçün 29 mart 2022-ci ildə Sabunçu rayon prokurorluğunun icraatına verilmiş və elə həmin gündən işin istintaqının əngəllənməsi məqsədi ilə, həmin prokurorluğun müstəntiqlərinin və prokurorlarının indiyə kimi davam etdirdikləri qanunazidd əməlləri, ancaq həmin cinayət işi üzərində törədilən məmur zorakılığı adlandırmaq olar. Göstərdiyim cinayət işinin istintaqı üzrə, Sabunçu rayon prokurorluğunda davamlı olaraq törədilmiş müxtəlif prosessual pozntularla bağlı, məhkəmə nəzarəti qaydasında şikayətlərimə əsasən, bu gün üçün cəmi iyirmi yeddi sayda məhkəmə qərarı mövcud olsa da, müstəntiqlər və istintaqa nəzarət etməli olan prokurorlar bu məhkəmə qərarlarını yerinə yetirmək əvəzinə, qanuna zidd əməllərini inadkarlıqla davam etdirirlər. Göstərdiyim 27 sayda məhkəmə qərarından, beş məhkəmə qərarı müstəntiqin "iş üzrə icraata xitama verilməsinə dair" qanunsuz qərarların ləğv edilməsi ilə bağlıdır.

Sabunçu rayon prokurorluğunun müstəntiqlərinin qərarlarının və prokuorun apellyasiya protestinin aqibətləri:

1). 30.12.2023-cü ildə müstəntiq Fuad Babayev hər hansı bir cinayət hadisəsinin olmaması əsası ilə cinayət işi üzrə icraata xitam qərarı vermişdir.

Şikayətimə əsasən, Sabunçu rayon Məhkəməsi 13.02.2024-ci il tarixli, 6(008)-19/2024 saylı qərarla müstəntiq Fuad Babayevin qərarını qanunsuz və əsassız olduğu üçün ləğv etmişdir.

2). Eyni əsasla, 31.05.2024-cü ildə müstəntiq Fuad Babayev cinayət işi üzrə icraata xitam qərarı vermişdir.

Şikayətimə əsasən, Sabunçu rayon Məhkəməsi 04.07.2024-cü il tarixli, 6(008)-62/2024 saylı qərarla müstəntiq Fuad Babayevin qərarını qanunsuz və əsassız olduğu üçün ləğv etmişdir.

3). Eyni əsasla, 31.07.2024-cü ildə müstəntiq Fuad Babayev cinayət işi üzrə icraata xitam qərarı vermişdir.

Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov 30.09.2024-cü il tarixli qərarla həmin qərarı ləğv etmişdir və əlavə istintaq hərəkətlərinin aparılması üçün Sabunçu rayon prokurorluğuna göndərmişdir.

4). Eyni əsasla, 01.02.2025-ci ildə müstəntiq Fuad Babayev cinayət işi üzrə icraata xitam qərarı vermişdir.

Şikayətimə əsasən, Sabunçu rayon Məhkəməsi 11.07.2025-ci il tarixli, 6(008)-62/2025 saylı qərarla müstəntiq Fuad Babayevin qərarını qanunsuz və əsassız olduğu üçün ləğv etmişdir.

5). Eyni əsasla, 02.03.2026-cı ildə müstəntiq Fuad Babayev cinayət işi üzrə icraata xitam qərarı vermişdir.

Şikayətimə əsasən, Sabunçu rayon Məhkəməsi 06.04.2026-cı il tarixli, 6(5-101)-31/2026 saylı qərarla müstəntiq Fuad Babayevin qərarını qanunsuz və əsassız olduğu üçün ləğv etmişdir və həmin məhkəmə qərarında göstərilmiş xüsusatlarla bağlı əlavə araşdırma aparılması üçün məhkəmə qərarını müstəntiqə və məhkəmə qərarının icrasına nəzarət həyata keçirmək üçün Sabunçu rayon prokuroruna göndərmişdir.

6). Sonuncu olan, bu Məhkəmə qərarının da ləğv edilməsi məqsədi ilə, Sabunçu rayonunun prokuroru Murad Dadaşov Apellyasiya protesti vermişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası 17.04.2026-cı il tarixli, 6(3-6)-200/2026 saylı qərarla prokuror Murad Dadaşovun protestini təmin etməmişdir.



Göstərilən şəxslərin qanuna zidd əməlləri barədə, Baş Prokurorluğa və Bakı şəhər prokurorluğuna dəfələrlə şikayətlər etmiş olsam da, bu cinayət işinin istintaqı ilə bağlı Sabunçu rayon prokurorluğunda məmur özbaşınalığı davam etdirilir ki, etdirilir.

Belə ki, 2022-2026-cı illər ərzində, cinayət işi ilk əvvəl icraatında olmuş müstəntiqlər - Tural Mürsəlovla Natiq Məmmədov, hazırda isə Fuad Babayev cinayət işinin icraatını əsassız və qanunsuz olaraq, ya dayandırmışlar, yaxud da xitama vermişlər.

Məhkəmə qərarında göstərilmiş tələbləri, yəni işin nəticəsi üçün vacib əhəmiyyət kəsb edən və zəruri istintaq hərəkətlərini yerinə yetirməmək üçün, başqa yol tapmayan prokuror Murad Dadaşov isə, hətta 2 ay ötdükdən sonra apellyasiya protesti ilə məhkəməyə müraciət etmişdir ki, birinci instansiya məhkəməsinin qərarı ləğv edilsin. (bu barədə aşağıda ətraflı şərh verəcəm)

Təəccüb yaradan odur ki, illər ərzində Sabunçu rayon prokurorluğunun dəyişən prokurorlarının və müstəntiqlərinin davam etdirdikləri kobud qanun pozuntuları ilə bağlı məhkəmə nəzarəti qaydasında verilmiş iyirmi yeddi məhkəmə qərarı və saxtakarlıqla ildən-ilə ötürülən bu cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluğun və Bakı şəhər prokurorluğunun rəhbərliyi də, heç tədbir görməmişdir.

Bütün bunların nəticəsidir ki, müstəntiqlər saxtalaşdırdıqları qərarları ilə, aidiyyəti prokurorlar isə məntiqsiz-mənasız-əsassız apellyasiya protestləri ilə, bu cinayət işini dəfələrlə "öldürüb-dəfn etməyə" cəhd etmiş olsalar da, zərəçəkmiş şəxsin təkzibolunmaz sənədli-sübutlu şikayətləri əsasında verilmiş məhkəmə qərarları ilə haqq-ədalət bərpa olunur, cinayət işi üzrə istintaq hərəkətlərinin yerinə yetirilməsi tələbi ilə istintaqa qaytarılır.

Lakin, tutduğu vəzifələrindən sui-istifadə etmiş və qanunvericiliyin tələblərini kobud surətdə davamlı olaraq pozmuş şəxslərə, heç "gözün üstə qaşın var" deyən də yoxdur.

Göstərdiyim cinayət işinin istintaqı ilə bağlı, Sabunçu rayon prokurorluğunda davam etdirilən qanunazidd əməllər Bakı şəhər Baş Polisi İdarəsinə və Sabunçu rayon Polis İdarəsinə də sövq etmişdir.

Belə ki, məhkəmə nəzarəti qaydasında şikayətim, Sabunçu rayon Məhkəməsinin 09.12.2025-ci il tarixli qərarı ilə təmin edilmiş, müstəntiq Fuad Babayevin cinayət işi üzrə istintaq hərəkətinin aparılmamasından ibarət hərəkətsizliyi qanunsuz hesab edilmişdir.

Bu qərardan şikayət etmək müddəti 3 gün olduğu halda, yuxarıda qeyd etdiyim kimi, prokuror Murad Dadaşov 2 ay sonra apellyasiya protesti vermişdir. Lakin, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası 18.02.2026-cı il tarixli, 6(3-6)-93/2026 saylı qərarla həmin protesti əsassız olduğu üçün təmin etməmişdir.

Onu da qeyd edim ki, 34 ədəd avtobusun oğurlanmasına dair, 4 il əvvəl yazmış olduğum ərizəmlə bağlı 2-3 vərəq izahatımın alınmasını hələ də təmin etməyən prokuror Murad Dadaşov şikayətlərimin baxılmasını, həmçinin istintaq hərəkətlərinin aparılmasını əngəllənmək üçün 12 səhifə apellyasya protesti yazmağın zəhmətini çəkmişdir.

Ondan əvvəl isə, zərərçəkmiş şəxs kimi, mənim üç yüzdən çox müraciətimlə bağlı illər ərzində heç bir tədbir görməyən Sabunçu rayonunun sabiq prokuroru İbrahim Lənbəranski haqqında şikayət etmiş olduğum - "Magna Trans" MMC-nin direktoru Mirzahid Ağayevi məsuliyyətdən yayındırmaq məqsədi ilə, 15 səhifəlik apellyasiya protesti yazıb məhkəməyə təqdim etmişdi. Lakin, onun da protestini Apellyasiya Məhkəməsi təmin etməmişdir.

Daha sonra, "Magna Trans" MMC-nin 34 avtobusunun oğurlanmasına dair şikayətim üzrə Bakı ŞBPİ-də heç bir tədbir görülmədiyi üçün, şikayətimə əsasən Xətai rayon Məhkəməsinin 14.02.2025-ci il tarixli, 6(011)-31/2025 saylı qərarı ilə, Bakı ŞBPİnin Təhqiqat şöbəsinin rəisi Tərlan Zeynalovun şikayətim üzrə araşdırma aparmaması qanunsuz hesab edilmişdir.

Həmin qərardan Bakı şəhər prokurorunun müavini Mobil Şəfiyev dərhal apellyasiya protesti vermişdir ki, Apellyasiya Məhkəməsi həmin qərarı ləğv etsin, yəni oğurluq hadisəsi polisdə araşdırılmasın. Maraqlıdır ki, bu prokuror oğurluq cinayətinin araşdırılmasını əngəlləməyə cəhd etməkdə niyyəti nədir?

Prokuror müavini Mobil Şəfiyevin protesti ilə bağlı, Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Əlizadə Emil Əli oğlu Apellyasiya Məhkəməsində çıxış edərək, prokuror müavini Mobil Şəfiyevin apellyasiya protestinin təmin edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası 02.05.2025-ci il tarixli 6(103)-177/2025 saylı qərarla prokuror müavini Mobil Şəfiyevin apellyasiya protestini əsassız olduğundan təmin etməmişdir.

Apelllyasiya Məhkəməsində müdafiəçi mövqeyi tutmuş Əlizadə Emil Əli oğlunun prokurorluqda tutduğu vəzifə "qanunların icrasına nəzarət idarəsinin prokuroru" olsa da, həmin məhkəmənin qərarının icrası ilə bağlı öhdəsinə düşən prokuror vəzifəsini yerinə yetirməkdən açıq-aşkar boyun qaçırmağı hələ də davam etdirir.

Birinci instansiya və Apellyasiya Məhkəmələri 27 sayda qərarla müstəntiqlərin qərarlarının hamısını əsassız-qanunsuz olması səbəbinə ləğv etmişlər və elə həmin səbəbə də prokurorların protestlərinin heç birini təmin etməmişlər. Bir cinayət işi üzrə yəqin ki, Dünyada hüquq elmi tarixində belə bir fakt olmamışdır.

Lakin, müstəntiqlər və aidiyyəti prokurorlar məhkəmə qərarlarında göstərilmiş prosessual pozuntuların aradan qaldırmaq üçün istintaq hərəkətləri yerinə yetirmək əvəzinə, yenidən hər-hansı bir bəhanə ilə, istintaqa aidiyyəti olmayan, çoxsəhifəlik əhəmiyyətsiz sözlər toplusu ilə qərarlarını "samballaşdırmaqla" cinayət işinin icraatına xitam vermişlər. Məhkəmə qərarlarının icrasına "pokuror nəzarəti" isə, prokurorun müstəntiqlərin icraata yeni xitam qərarlarını imzalamaqdan ibarət olmuşdur.

Cənab Baş prokuror, 210050957 saylı cinayət işinin istintaqının aparılması (əslində süründürülməsi) dövründə Sabunçu rayon prokurorluğunda iki prokuror - sabiq İbrahim Lənbəranski, indiki Murad Dadaşov və üç müstəntiq - Tural Mürsəlov, Natiq Məmmədov, Fuad Babayev dəyişməsinə baxmayaraq, cinayət işinin istintaqının əngəllənməsi daha da inadkarlıq və güvənliklə davam etdirilir ki, bu da gələcəkdə qarşısıalınmaz yoluxucu bir sindroma çevirilə bilər.

Bir vətəndaş olaraq soruşuram: cinayət işinin istintaqı ilə bağlı prosessual pozuntulara dair verilmiş məhkəmə qərarları prokurorluqda icra olunmursa, qanun kim üçündür?

Müraciət etməkdə məqsədim, Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunan, indiki halda pozulmuş mülkiyyət hüquqlarımın bərpası, yəni zərərçəkmiş şəxs olduğum 210050957 saylı cinayət işi üzrə Sabunçu rayon prokurorluğunda istintaq hərəkətlərinin real aparılmasının təmin edilməsi, məhkəmə qərarlarının icra olunmamasına hüquqi qiymət verilməsi və cavabdeh şəxslər barədə tədbir görülməsidir.

Ağasəf İsmayılov, iş adamı-sahibkar, 210050957 saylı cinayət işi üzrə zərərçəkmiş şəxs".

**"Təzadlar"**

# Əlillik dərəcəsi almaq üçün illərlə çaba göstərənlər, müddət konkretləşib

**Nazirlər Kabineti "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi Qaydasını" təsdiq, "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda isə dəyişiklik edib.**



Yeni sənədlə istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası təsdiq olunub.

Yeni qaydalar əlillik dərəcələrinin alınmasını asanlaşdıracaqmı?

Sualı iqtisadçı-deputat Vüqar Bayramov belə cavablandırıb:

"Qaydalar ilə peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi ilkin olaraq müəyyən edilən zaman xəstəlik və ya zədə, habelə zədə ilə əlaqədar çatışmazlığın səbəb əlaqəsini təsdiq edən sənədlərin siyahısı da konkretləşdirilib.

Eyni zamanda, "peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi (faizlə)" ilə orqanizmin funksiyalarının pozulması faizinin peşələr üzrə təzahür dərəcəsi və sığorta olunanın yaşına uyğun olaraq peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsi müəyyən edilib və bunun üçün xüsusi düstur da təsdiq olunub.

Əlilliyin müəyyənləşdirilməsi ilə bağlı müddət də konkretləşdirilib. Belə ki, komissiya peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsinə dair qiymətləndirilmənin aparıldığı gün, əlavə araşdırma tələb olunduğu hallarda, həmin gündən sonra 5 iş günü müddətində qərar qəbul edərək protokolla rəsmiləşdirməlidir. Kağız daşıyıcıda qəbul edilmiş qərar 3 iş günü ərzində MEİS-in "Əlillik" altsisteminə daxil edilmədən sığortalıya təqdim edilməlidir. Eyni zamanda, qərarın altsistemə daxil edilməsi də nəzərdə tutulur. Peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi məqsədilə qiymətləndirmə aparılan zaman orqanizmin funksiyalarının 30 faizə qədər və bu göstəricidən daha çox pozulması halları fərqli meyarlar ilə aparılır.

Bütövlükdə, yeni sənəd istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyənləşdirilməsi qaydalarını müəyyən edir. Əlillik təyinatının elektronlaşdırılmasının dərinləşdirilməsi və xüsusən də süni intellektdən daha yaxından istifadə olunması da prioritet olaraq qalmaqdadır".

**Y. Məmmədli**

# Tanınmış hüquqşünas əmanətçilərə xəbərdarlıq etdi: "Pulunuzu..."

## "Deməli, 2009-cü ildə "Turanbank"a əmanət qoymuş əmanətçi 2012-ci ildə vəfat edib"

**...Bank əmanətlərinin ələ keçirilməsinə dair xeyli nümunələr var. "Təzadlar" hələ ötən il bir pensiyaçının Beynəlxalq Bankdakı 10 min manatdan çox pulunun yoxa çıxarılmasından yazmışdı... Pensiyaçı-əmanətçi Hüseynli Rauf Murtuz oğlu redaksiyaya təqdim etdiyi şikayət ərizəsində yazırdı: "Mən, Bakı şəhəri, Qarabağ küç.8 ünvanında yaşayıram.**

Uzun illər illərdir pensiyamı kartla ABB Bankdan alıram. Mənə məlum idi ki, pensiya bank hesabıma nə pul mədaxil, nə də həmin bankın kartsız məxaric etmək mümkün olmur. Bunu nəzərə alaraq, ABB Bankı çox etibarlı bank hesab edərək, 10.11.2023-ci il tarixində Azərbaycan Beynəlxalq Bankın Gənclik filialında debet kart üçün bank hesabı açmışam. (Həmin Bank hesabın №AZ52İBAZ33881019441875133206). Hesab açıldıqdan sonra mənə dedilər ki, kartı üç gün sonra 14.11.2023-ci il tarixində, saat 14-00-dən sonra ala bilərəm. Mən bir gün sonra 13.11.2023-ci il tarixində həmin Bank hesabıma 11000 AZN məbləğində pul vəsaiti yerləşdirdim, saat 12-00 radələrində (Həmin yerləşdirdiyim məbləğin mədaxil qəbzin surəti tələb olunan zaman təqdim oluna bilər). Hələ bank kartımı sabahısı gün, saat 14-00 dan sonra aldığıma baxmayaraq, saat 15-00 (pul məbləğini yerləşdirdikdən cəmi 3 saat sonra) mənə Bankdan SMS gəldi ki, kartımın "OTP" kodu filandır... Mən hələ mesajdakı koda baxmamış, dərhal üstündən 2-i dəqiqə sonra SMS gəldi ki, mənim hesabımdan 10500 AZN pul məbləği çıxıb və 2-i dəqiqədən sonra yenə SMS gəldi ki, mənim hesabımdan daha 450 AZN pul məbləği çıxarıldı və hesabımın balansında 50 AZN pul qalıb. Yəni, ay hərif - evə piyada getmiyəsən. (Həmin Bankın mənə göndərdiyi SMS-lərin telefonumdan Scrin-shot surətləri bu ərizəyə əlavə olunur). Həmin SMS-lərin vaxt müddətlərinə diqqətlə baxsaq, görmək olar ki, bütün SMS-lər 4-5 dəqiqə arasında göndərilib. Aydın olur ki, bu vaxt müddətində mən heç kəsə, heç bir məlumat göndərə bilmərəm və göndərməmişəm də. Mən heç bu vaxta kimi, o göndərilən "OTP"-lərin nə üçün olduğunu da anlaya bilmirəm. Bu faciə məsələni bilənlərin hamısı, hətta bu işə baxan polis işçiləri, təcüblənirlər ki, necə mən o vəziyyətdə infarkt olmamışam. Dərhal, təngnəfəs və tər içində özümü Banka çatdırdım. Çətinliklərlə və uzun müddətdən sonra kart hesabımı bloka salmağa nail oldum. Baş verənlər barədə Bankın rəhbərliyinə rəsmi Ərizə yazdım və həmin sənəd qeydiyyata alındı.

Sabahı gün 14.11.2023-cü il tarixində, həmin gün saat 14-00 dan sonra debet kartımı almalı idim, AR Milli Banka gəlib, baş verən hadisə barəsində rəsmi Ərizə təqdim etdim. (Həmin Ərizənin surəti sənədlərə əlavə oluna bilər). Mənə məsləhət gördülər, bu məsələ ilə bağlı Polis İdarəsinə müraciət edim və 20.11.2023 ci il tarixində mən bu məsələ ilə Baki şəhəri, Nərimanov rayon Polis İdarəsinə rəsmi ərizə ilə müraciət etdim... Ancaq Elnur Məmmədov Saatlı rayon Polis Şöbəsinə rəis vəzifəsinə keçdikdən sonra, məlum olmuşdur ki, 21.04.2024-ci il tarixində, yəni 3 ay bu təyinatdan əvvəl və məni azdırmaq məqsədi ilə və ABB-nin xeyrinə, istintaq edilən 240066025 nömrəli cinayət işinin bu QƏRARI-nı qəbul etmişdir: "...cinayət törətmiş şəxs müəyyən edilmədiyinə görə işin icraatı əməli törətmiş şəxs müəyyən edilənədək dayandırılmalıdır".

**Xatırladırıq ki, bu araşdırma hələ də davam edir...**

***

**Tanınmış hüquqşünas-vəkil Əkrəm Həsənov da əmanətlərin təhlükəsizliyi ilə bağlı maraqlı status paylaşıb. Sitat: "BANK ƏMANƏTÇİLƏRİNİN NƏZƏRİNƏ! (ehtiyatlı olun: bank əmanətinizi mənimsəyə bilər! eləcə bank hesablarında olan digər pullarınızı da!). İcraatımda bir iş var.** Hələlik yalnız birinci instansiya məhkəməsi bitib. Amma məsələnin əhəmiyyətini nəzərə alaraq bank əmanətçilərini xəbərdar etməyi özümə borc bilirəm. Deməli, 2009-cü ildə "Turanbank"a əmanət qoymuş əmanətçi 2012-ci ildə vəfat edib. Vərəsəsi illər sonra sənədlər arasında bu bankla əmanət müqaviləsini və rayonda torpaq sahəsinə çıxarış tapıb. Torpağı asanlıqla adına rəsmiləşdirdi. Amma əmanəti bank qaytarmadı. Bank vərəsəlik işini aparan notariusa yazdı ki, əmanətçinin hesabı 2021-ci ildə bağlanıb. Təəccüblüdür: 2012-ci ildə vəfat etmiş şəxsin hesabı niyə 9 il sonra bağlanıb? Əmanəti 2021-ci ildə kim çıxarıb? Üz tutduq məhkəməyə. Məhkəmədə bank dedi ki, guya əmanətçi 2010-cu ildə əmanətini çıxarıb. Sual verdik ki, bəs, yaxşı, hesabı onda niyə 2021-ci ildə bağlamısız? Cavab ala bilmədik. Tələb etdik ki, əmanətçinin əmanəti çıxarması haqda kassa sənədini (məxaric orderini) təqdim etsinlər. Bank dedi ki, 2016-cı ildə əmanətçiyə dair sənədləri məhv edib (bəs hesabı onda niyə və nəyə əsasən 2021-ci ildə bağlayıb?), çünki Mərkəzi Bankın arxiv işinə dair Təlimatında sənədlərin saxlanmasının minimal müddəti 5 ildir. Halbuki, həmin Təlimatın müştərilərə aidiyyəti yoxdur: Mərkəzi Bankın müəyyən etdiyi müddətin mənası odur ki, o, bankları yoxlayanda azı 5 il ərzində həmin sənədlər onlarda olmalıdır. Buna görə də Mərkəzi Bank demir ki, sənədləri 5 ildən sonra məhv et, deyir ki, MƏNİM ÜÇÜN azı 5 il saxla. Amma bankın müştərisi qarşısında əmanət öhdəliyi varsa, bank deyə bilməz ki, pulu çıxarmısan, amma kassa sənədini 5 il ötdüyü üçün məhv etmişəm. Əks halda, onda bankdan kredit götürənlər də belə deyə bilər: krediti ödəmişəm, kassa sənədini isə məhv etmişəm. Xatırladıram ki, əmanət tələbi üzrə iddia müddəti yoxdur, yəni 100 il sonra da əmanətçi gəlib pulunu istəyə bilər. Lakin görünən odur ki, bizim banklarımız İsveçrə bankları kimi etibarlı deyil.



Nə isə, dedik ki, yaxşı, heç olmasa sənədlərin məhv edilməsi haqda aktı göstərin. Gətirdilər. Aktda əmanətçinin adı yox idi: "optovoy" siyahıdır - nə bilim, bu qədər filan sənəddən, bu qədər də filan sənəddən məhv etdik. Heç bir müştərinin adı yoxdur. Soruşduq ki, indi necə əmin olaq ki, bizim sənədi də məhv etmisiz? Yeri gəlmişkən, bankın istinad etdiyi Mərkəzi Bankın Təlimatına əsasən belə "optovoy" siyahı olmamalı idi. Dedik ki, yaxşı, bəs hesabımızın 2021-ci ildə bağlanmasına dair sənəd gətirin, ona dair axı 5 il ötməyib ki! Amma gətirmədilər. O da yoxdur!

Əvəzində bank dedi ki, onun yüksək səviyyəli proqram təminatı var, orada bütün məlumatlar var və ona sonradan düzəliş də etmək mümkün deyil, gəlin baxın. Hakimlə bərabər yerində baxışa getdik görək ki, bu nə proqram təminatıdır axı. Yerində məlum oldu ki, bank bu proqram təminatından cəmi 3 ildir ki, istifadə edir, yəni 2009-2010-cu illərdə bu sistemi yox idi. Deməli, indi ora istədiyi məlumatı daxil edə bilər. Amma bank həmin sistemdən əmanətçi tərəfindən əmanətin çıxarılması barədə kassa məxaric orderini də çap edib məhkəməyə təqdim etdi. Ondan da məlum oldu ki, bu sənəddə nə bank işçilərinin, nə də əmanətçinin imzası da yoxdur, möhür-ştamp da yoxdur. Sadəcə blankdır, vəssalam! Yeri gəlmişkən, faizlərin ödənilməsinə dair isə bank ümumiyyətlə heç bir sübut təqdim etmədi! Bütün bunlara baxmayaraq, məhkəmə iddiamızı rədd etdi. Hakimin arqumentlərindən bəzi inciləri bölüşəcəyəm aşağıda (amma bu mövzunu gələcəkdə daha ətraflı işıqlandıracağam onsuz da). Lakin əsas odur ki, bu qətnamə qüvvədə qalsa, nəinki bank əmanətləri, bank hesablarında olan istənilən pula təminat yoxdur. Heç 5 il məsələsi də önəmli deyil. Çünki məhkəmənin mövqeyi budur ki, bankın hər sözünə, xüsusilə özünü tərtib etdiyi hesabdan çıxarışa, proqram təminatına və s. tam etibar etmək olar. Yəni bank həmişə haqlıdır: krediti tələb edəndə də, əmanətçi ondan pulunu tələb edəndə də. Odur ki, ehtiyatlı olun, bank müştəriləri, siz həmişə haqsız tərəfsiniz...

**"Yeri gəlmişkən, faizlərin ödənilməsinə dair isə bank ümumiyyətlə heç bir sübut təqdim etmədi!"**

Vallah, hüquqşünas kimi heç məsləhət də verə bilmirəm ki, özünüzü belə haqsızlıqdan necə qoruya bilərsiniz. Çünki sizin əlinizdə sənəd olsa, bankın sadəcə sözü (və ya bilmirəm nəyi - babal yuya bilmərəm) keçərlidir...

P.S. İndi isə qətnamənin üç maraqlı hissəsini bölüşürəm (qalanları gələn dəfəyə qalsın):

1. "Hazırkı işin halları baxımından cavabdeh öz etirazının əsası kimi istinad etdiyi hallara dair obyektiv baxımdan mümkün olacaq bütün müvafiq sübutları təqdim etmişdir ki, bu halda həmin sübutların təkzibi yükü iddiaçının üzərinə düşür."

Yəni hakim deyir ki, bank əmanəti qaytardığını sübut etməli deyil, əmanətçi onu götürmədiyini sübut etməlidir. Banka borcu olanlara tövsiyəm: siz də bu fənddən istifadə edə bilərsiz - deyin ki, ay bank, sən sübut et ki, mən sənə krediti ödəməmişəm.

2. "Sübutların qiymətləndirilməsi prosesində məhkəmə onu da nəzərə alır ki, əgər həqiqətən iddiaçının dediyi kimi, əmanət hesabından əmanət məbləği çıxarılmasaydı bu halda müqavilə şərtlərinə əsasən müqavilə münasibətləri davam etdirilər və müvafiq olaraq sonrakı illər üzrə də əmanət hesabına faizlər hesablanmış olardı."

Yəni hakim deyir ki, əmanət çıxarılmasaydı, bank üzərinə faizlər hesablayardı. Hesablamayıbsa, deməli, əmanət də yoxdur da. Başqa sözlə, hakim üçün bank məsum şəxsdir, onun əmanəti mənimsəməsi ehtimalı ümumiyyətlə mövcud ola bilməz! Bu arqumentdən də borclular istifadə edə bilər: deyin ki, sənə borcum olsaydı, mühasibat balansımda faizləri də göstərərdim, göstərməmişəm, deməli, borcum da yoxdur da...

3. "Bank sistem məlumatlarının, arxiv işinin təşkilinin şübhə altına alınması üçün hər hansı əsas müəyyən edilmir".

Yəni bankın proqram təminatından nə çıxırsa, heqiqətdir. Arxiv işini yanlış apararaq sənədləri "optovoy" məhv edibsə, yəni "qardaşlıq məzarı"nda dəfn edibsə, nə olsun ki, şübhə altına almaq olmaz, günahdır...".

Sitatın sonu!

**A. Məmmədli**

---

**Xəbər verdiyimiz kimi, "Bakı Metropoliteni" QSC- nin dövlət proqramının bir hissəsi olaraq, Nizami stansiyasının yaxınlığında B5 stansiyasının tikiləcəyini açıqlayıb. Stansiya Mərkəzi Parkın altında yerləşəcək və Nizami stansiyasına qoşulmanı təmin edəcək.**

# Yasamalda əlavə metro stansiyası tikintisinə etiraz edən QHT rəhbərindən yeni etiraz




Tanınmış QHT rəhbəri Sahib Məmmədov bu tikintiyə etirazını sosial şəbəkə hesabında yazmışdı. Sitat: "Bu, sadəcə ağılsızlıqdır. 28 may-Nizami xətti onsuz da kesson üsulu ilə tikilib. Tikiləndən sonra xəttin biri çöküb və sonradan 6 ay ərzində bərkidilib. Həmin ərazi yeralti suların aktiv zonsıdır. Son dərəcə böyük xərc tələb edən səmərəsiz və təhlükə yaradа bilən layihədir. Ərazinin hidrogeoloji şəraiti belə layihələrin icrasına imkan vermir. Pul silməyə yer tapmırlar deyəsən?".

Az əvvəl Sahib Məmmədov bu məsələyə bir az da fərqli formada yazmışdır: "Dünən yazdığım bir abzas yazının bu qədər rezonans doğruacağını düşünməzdim. Əvvəla, hələki mən vətəndaş cəmiyyəti təmsilçisiyəm. Ölkə Prezidenti də dəfələrlə ictimai nəzarətə önəm verdiyini bildirib. İndi mən həyata keçirilməsi planlaşdırılan və həddən artıq böyük resurs tələb edən layihə barədə öz fikrimi bildirmişəm və fikrimdə də qalıram. Dövlət proqramı çərçivəsini Bakı şəhərinin nəqliyyat innfrastrukturunun yaxşılaşdırılması üçün əhəmiyyəli layihələr icra olunur. Bu layihə də vacibdir, amma iqtisadi baxımdan nə dərcədə səmərəlidir? Ona qoyulacaq resurs və bu layihənin ətraf mühitə və şəhər təhlükəsizliyinə təsirləri ölçülübmü? Mənim qənaətimə görə yox. Əks halda daha ciddi fikirləşərdilər. Hər halda məni təkzib edib əks fikrlər səslındirsələr də ərazidə hidrogeoloji şəraitin mürəkkəb olmasını inkar etməyiblər. Əks fikirləri yazan media orqanlarına da etirazım yoxdur. Qafqazinfo.az -ın verdiyi matreala da etirazım yoxdur. Sağ olsunlar mənim də fikirlərimi şübhə altına alsalar da veriblər. Amma niyə keçmiş icra başçısı yazıblar onu anlamadım. Yazardılar ki, keçmiş qazmaçı, metro tikitisində işləmiş, QHT rəhbəri və s. Bu gün mən AZTV-də daxil olmaqla müraciət edən televiziyalara da öz fikirlərimi bildirdim. İndi hansı hissəsini verəcəklər özləri bilər. Faydalı layihə o demək deyil ki, o mütləq reallaşmalıdır. Bir vaxlar Cənubi Koreya şirkəti ilə Xəzər buxtası üzərindən Zıx istiqamətinə körüpü tikintisi layihəsinin reallaşdırılması müzakirə olndu. Sonra baxdılar ki, şəhərdə tıxacların azaldılmasına əhəmiyyətli töhfə versə də iqtisadi baxımdan səmərəli deyil, həddən artıq vəsait tələb edir. İndi bu planlaşdırlan layihəni də mən iqtisadi baxımdan o qədər də sərfəli hesab etmirəm. Həmçinin bundan da vacib məsələ odur ki, intensiv su axınlarının qarşısnın alınması uzunmüddətli planda mənfi nəticələrə gətirəcək. Hündür binalar, yollar çökəndə məni xatırlayarsız. Necə deyərlər özünüz biling".

**Səbuhi**




# Tarix İnstitutu direktorunun cərimələnməsinə səbəbkar olduğu deyilən alim "Təzadlar"a açıqlama verdi...

**Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda son günlər baş verən məlum hadisə barədə ölkə mediasında, o cümlədən "Təzadlar"da informasiyalar yer alıb.**

Söhbət institutun direktoru, professor Kərim Şükürovun Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 1000 manat cərimələnməsindən gedir. Direktorun etirazlı açıqlamasından isə bəlli olur ki, institutun 77 yaşlı əməkdaşı Tofiq Həsənov 2025-ci il dekabrın əvvəlində təzyiqinin aşağı düşməsi səbəbilə sanitar qovşaqda özünü pis hiss edib. Bununla bağlı təcili yardım çağırılıb, ailəsinə məlumat verilib, daha sonra Tofiq Həsənov bülletenə çıxıb və nəhayət, institut direktoru cərimələnib. Çıxarılan qərarla razılaşmayan institutun direktoru Kərim Şükürovun məhkəməyə müraciət etdiyi barədə məlumat aldıq. Təbii ki, bu direktorun Konstitusion haqqıdır. Bilmirik, Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsi necə olub ki, məsələni hərtərəfli araşdırmadan belə bir qərar qəbul edib, amma bəlkə də ağsaqqal alim Tofiq Həsənovla bağlı məsələnin institutun daxilində həlli daha vacib idi. Elə K.Şükürovun da mediaya açıqlamasında söylədiyi bu fikir diqqəti çəkir: "...**İstitutun direktoru kimi ştat cədvəli üzrə əmək haqqım 1150 manat olduğu halda, aprelin 23-də, hadisədən 5 ay sonra mənə 1000 manat cərimə tətbiq edilib. Çıxarılan qərarla razılaşmıram və bununla bağlı hüquqi mübarizəmi davam etdirəcəyəm, məhkəməyə müraciət etməyi düşünürük".**



"Təzadlar"ın bu məsələ ilə bağlı iki gün əvvəl yayımladığı məlumatdan sonra dünən Tofiq Həsənov redaksiyamızla əlaqə saxladı: "...Mən çox istərdim ki, əməkdaşınız bu məlumata həm də mənim fikirlərimi əlavə edərdi. Çünki mən xeyli müddətdir təzyiqlərə məruz qalmaqda idim... İki gündür ki, birtərəfli məlumatlardan belə çıxır ki, bütün baş verənlərin baiskarı mənəm, digərləri günahsızdır. Mən ömrümü tarix elminə həsr etmişəm, yetərincə xidmətlərim var. Amma bu xidmətlərin əvəzini institutdan görməmişəm... Odur ki, mənim tərəf olaraq danışmaq və fikirlərimi söyləmək haqqım var, bunu nəzərə alıaraq Sizə göndərdiyim bəyanatı yayımlamağınızı xahiş edirəm".

Aşağıda "Media haqqında" Qanunun tələblərini nəzərə alaraq T.Həsənovun redaksiyanın elektron poçtuna göndərdiyi Bəyanatını təqdim edirik:

**"BƏYANAT**

Hörmətli "Təzadlar" qəzetinin redaksiyası və rəhbərliyi!

Mən, Həsənov Tofiq Əliş oğlu, ömrümün böyük hissəsini elmə, Azərbaycan elminə və Azərbaycan Milli Elmlər Akademiyasına həsr etmiş bir insanam. Tarix üzrə fəlsəfə doktoru, dosentəm. Uzun illər ərzində elmi fəaliyyətlə məşğul olmuş, 100-dən artıq elmi məqalənin müəllifi olmuşam, müxtəlif elmi mükafat və təltiflərə layiq görülmüşəm.

Bu yaşımda, ömrümün ahıl çağında adımın mətbuatda və sosial şəbəkələrdə belə xoşagəlməz bir hadisə ilə bağlı hallandırılması məni dərindən sarsıtdı. Xüsusilə qeyd etmək istəyirəm ki, şəxsi məlumatlarımın, səhhətimlə bağlı vəziyyətin və başıma gələn hadisənin ictimailəşdirilməsinə razılıq verməmişəm. Çox təəssüf edirəm ki, institut rəhbərliyi mənim şəxsi vəziyyətimlə bağlı məlumatların yayılmasına yol vermişdir. Bu, mənim fikrimcə, əməkdaşa, xüsusilə də ömrünü elmə həsr etmiş yaşlı bir alimə münasibətin acı göstəricisidir.

Hadisə baş verən gün səhhətim qəfil pisləşmiş, huşumu itirərək yıxılmışam. Təcili tibbi yardım vasitəsilə xəstəxanaya aparılmışam. Bu, mənim üçün yalnız fiziki deyil, həm də mənəvi baxımdan ağır bir hadisə idi. Yaşımın bu çağında belə bir vəziyyətlə üzləşmək, sonra isə adımın müxtəlif yazılarda hallandırıldığını görmək mənim üçün son dərəcə ağrılıdır. Hazırda da səhhətimlə bağlı problemlər davam edir və mən hələ də xəstəlik vərəqəsindəyəm. Buna baxmayaraq, bütün bu müddət ərzində institut rəhbərliyi tərəfindən səhhətimlə bağlı heç kim maraqlanmayıb. Mən yaşlı bir insanam, bacımla yaşayıram. Bu ağır günlərdə bacımdan və bir neçə həmkarımdan başqa, demək olar ki, diqqət və qayğı görmədim.

Xüsusilə qeyd etmək istəyirəm ki, hadisədən sonra bacım xəstəxanaya gələrək səhhətimlə maraqlanmış, vəziyyətimin nisbətən sabit olduğunu gördükdən sonra institutda qalan şəxsi əşyalarımı- üst geyimimi və telefonumu götürmək üçün Tarix və Etnologiya İnstitutuna getmişdir. Çünki məni təcili yardım apardığı üçün həmin əşyalar kabinetdə qalmışdı. Təəssüf ki, bacım institutda direktor müavini İlqar Niftəliyev tərəfindən kobud və etinasız münasibətlə qarşılaşmışdır. Uzun illər həkim işləmiş, ziyalı bir insan olan bacım bu münasibətdən çox sarsılmışdır. Təsəvvür edirsinizmi, bir neçə gün öncə isə öyrəndim ki, evdə ağır vəziyyətdə olduğum halda institut rəhbərliyi tərəfindən barəmdə növbəti dəfə töhmət verilmişdir. Bu xəbər mənim üçün xüsusilə ağır oldu. Mən öz səhhətimin pisləşməsi barədə şəxsən məlumat vermişdim. Buna baxmayaraq, evdə xəstə olduğum, hələ də müalicə aldığım bir vaxtda barəmdə intizam tədbiri görülməsi insani baxımdan mənə çox ağrılı təsir etdi.

Bəli, mən artıq ahıl yaşdayam. Ola bilsin ki, kimlərsə hesab edir ki, mənim artıq evdə oturmağım daha məqsədəuyğundur. Ola bilsin ki, yaşlı alimlərin fəaliyyəti kimlərəsə artıq yük kimi görünür. Amma bunu insana bu qədər kobud, soyuq və hörmətsiz şəkildə hiss etdirmək olarmı? Ömrünü elmə vermiş bir insanla belə davranmaq nə dərəcədə doğrudur? Mən illərlə bu elm ocağına bağlı olmuşam. Akademiyanın, institutun adını öz adım kimi qəbul etmişəm. Bu gün isə ən çətin anımda özümü tək, müdafiəsiz və unudulmuş hiss edirəm. Mənim istəyim nə münaqişə yaratmaqdır, nə də kimisə ittiham etmək. Sadəcə olaraq, yaşlı bir alim kimi mənə qarşı insani münasibət göstərilməsini, şəxsi məlumatlarımın və səhhətimlə bağlı məsələlərin razılığım olmadan ictimailəşdirilməməsini istəyirəm.

Elm yalnız məqalələrdən, hesabatlardan, planlardan ibarət deyil. Elm həm də insanlıqdır, ləyaqətdir, yaşlı alimə hörmətdir, onun əməyinə verilən qiymətdir. Mən bu bəyanatı böyük təəssüf hissi ilə yazıram. Arzu edərdim ki, ömrümün bu çağında adım elmi fəaliyyətimlə, xidmətlərimlə, Azərbaycan elminə verdiyim töhfələrlə xatırlansın, belə xoşagəlməz hadisələrlə deyil.

**Hörmətlə,**
**Həsənov Tofiq Əliş oğlu**
**Tarix üzrə fəlsəfə doktoru, dosent".**

**REDAKSİYADAN: Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutundan bu bəyanatın məzmun və mahiyyəti ilə bağlı mövqe olarsa, dərc etməyə hazırıq.**

**"Təzadlar"**

# Milli həsrətin poetik ifadəsi

**...1982-ci ildə qələmə alınmış "Yandırar məni" şeiri Azərbaycan poeziyasında milli yaddaş, parçalanmış milli kimlik və tarixi ayrılıq mövzularının dərin poetik ifadələrindən biridir. Şeir dolğun bir əsər kimi marksizm-leninizmə əsaslanan SSRİ adlı böyük dövlətin ideoloji məkanında yazılmasına baxmayaraq, şair milli problemin mahiyyətinə ciddi toxunur və bunu açıq şüarçılıqdan uzaq, simvolik, lakin son dərəcə aydın bir poetik dillə ifadə edir. Bu əsər həm şairin fərdi qəlb çırpıntılarının, həm də ümummilli dərdin bədii sintezini aydın göstərir. Şeirin əsas semantik dayaqlarından biri ayrılıqdır. Bu ayrılıq konkret bir insanın yoxluğundan deyil, tarixən zorla parçalanmış bir millətin taleyindən qaynaqlanır. Şair ayrılıq hissini birbaşa deyil, təbiət və hərəkət obrazları vasitəsilə təqdim edir:**

*"Gecikib payızda açılan çiçək,*
*Qatardan ayrılıb yol gedən durna..."*





Payızda açılan çiçək - təbiətin ritmindən kənar düşmüş həyat, qatardan ayrılan durna isə ümumi taleyindən qoparılmış xalqın simvoludur. Burada "qatardan ayrılma" ifadəsi təsadüfi deyil; qatar zamanın, tarixin və tərəqqinin rəmzidir. Ondan ayrılan durna isə öz iradəsindən asılı olmayan bir taleyin daşıyıcısıdır.

Şeirdə ata-ana motivi fərdi ailə çərçivəsindən çıxaraq Vətən və xalq anlayışına yüksəlir:

*"Övlad yollarına göz dikə-dikə,*
*Ömrü yola verən, ay ata-ana!"*

Burada valideyn obrazı əsrlərlə yol gözləyən millətin metaforasıdır. "Ömrü yola vermək" ifadəsi isə yalnız gözləməyi deyil, ümidin zamanla aşınmasını bildirir. Bu, fiziki ayrılıqdan daha çox siyasi - ideoloji baryer və ya süni tıxaclarla möhkəmləndirilmiş bir hicrandır. Elə bir hicran ki, qan qohumu olan insanların həyatında illərlə silinməz izlər qoyub.

Şeirin ideya yükünü daşıyan əsas məkan obrazı Araz çayıdır:

*"Körpüsü qırılan gəmli Arazım,*
*Ümidim, göz yaşım, həyatım, arzum..."*

Azərbaycan ədəbiyyatında ayrılıq simvoluna çevrilən Araz burada yalnız coğrafi anlayış deyil, parçalanmış milli bədənin şah damarıdır. "Körpüsü qırılan" Araz - əlaqənin, birliyin, qovuşmanın mümkünsüzlüyünü və ya çətinliyini simvolizə edir. Körpünün qırılması təkcə fiziki yox, tarixi və siyasi ayrılığı ifadə edir. İllər sonra Sabir bəy KİV-ə verdiyi müsahibələrinin birində qeyd edir ki, Araz bir simvoldur, ayrılıq varsa, Araz da var. Xalq şairinin fikrincə, Araz olmasaydı, Savalan dağı, Muğan çölləri deyəcəkdik, ayrılığı rəmzləşdirən bir sərvətimiz olacaqdı. Araz ədəbiyyatımızın parlaq obrazıdır, ayrılığı yox, həm də birliyi, bütövlüyü bildirir. Ona görə Araza yalnız ayrılığın rəmzi kimi baxmaq lazım deyil, biz ona həm də birləşdirici çay kimi baxmalıyıq. Çünki üstündən salınan Xudafərin körpüsü ilə bizi birləşdirir. Araz tarix üçün andır, Savalanlı, Şahdağlı, Mil-Muğanlı... "

Qayıdaq "Yandırar məni" şeirinə. Bu şeirin ən kəskin ideoloji qatlarından biri millətin müxtəlif adlarla parçalanmasına qarşı üsyandır:

*"Türk", "tatar", "iranlı"...*
*"müsəlman",*
*Biri də "törəmə", "qızılbaş" olan..."*

Bu misralarda şair adların çoxaldılması yolu ilə mahiyyətin gizlədilməsini ifşa edir. Burada problem etnik müxtəliflik deyil, süni kimlik bölgüsüdür. Eyni kökdən gələn xalqın müxtəlif siyasi-etnik etiketlərlə təqdim olunması milli özünüdərkin parçalanmasına xidmət edən tarixi proses kimi təqdim edilir.

Şeirin emosional kulminasiyası "sükut" anlayışı ilə bağlıdır: "Sizin sükutunuz yandırar məni!"

Rəhmətlik Xəlil Rza Ulutürk yazırdı ki, "Bu, fəryaddır, milli şüurun ləngiməsinə qarşı ŞAİR FƏRYADI" Bu lal sükut qorxunun, təzyiqin və senzuranın nəticəsi olsa da, şair onu məsuliyyətsizliyin poetik ittihamına çevirir. Burada açıq mübarizə çağırışı yoxdur, lakin mənəvi narahatlıq yaratmaqla oyatma cəhdi mövcuddur. Şeir oxucunu birbaşa hərəkətə çağırmasa da, oxucunu məlumatlandırır, onun daxili yanğısını alovlandırır.

...1982-ci il SSRİ məkanında milli birlik, Araz həsrəti, türk kimliyi kimi anlayışların bu qədər aydın poetik şəkildə ifadəsi ədəbi cəsarətin göstəricisidir. Şair ideoloji baryerləri birbaşa dağıtmır, lakin onları simvol, metafora və emosional yüklü obrazlar vasitəsilə aşır. Bu baxımdan "Yandırar məni" senzura dövrü poeziyasının səciyyəvi nümunələrindən biridir.

Göründüyü kimi, şairin vətəndaş yanğısı ilə ərsəyə gətirdiyi "Yandırar məni" şeiri milli həsrətin poetik ifadəsi, parçalanmış kimliyə poetik etiraz, səssiz, lakin dərin bir birlik və özünüdərk çağırışıdır. Bu əsər oxucunu yanğı ilə silkələyir. Şeir göstərir ki, millət sussa da, danışmasa da, onun yaddaşı susmur, danışır. Və bu yaddaş susduqca yox, silkələnib yana-yana danışdıqca yaşayır. Və bu problemi gələcəyə daşıyır.

HAŞİYƏ: Sabir bəy Cənubi Azərbaycanla bağlı "Yandırar məni" şeirini və ən çox sevilən əsərlərindən olan "Sağ ol, ana dilim!" şerini uzaq Latviyanın Yurmala şəhərinin inzibati mərkəzi və ən qədim hissəsi olan Dubultuda - yaradıcılıq evində qələmə almışdır. "Torpağım ikiyə bölünən zaman, Bu dil bölünməyən torpağım oldu" - deyən şair "Vətən" şeirini də sovet dövründə, bu mövzuda qələmə alınan əsərlərin Sabir bəyin öz təbirincə desək, "qapılar dalına qoyulduğu" illərdə yazılıb. O dövrün qadağa və yasaqlarının olduğu bir vaxtda Sabir Rüstəmxanlı gənclik enerjisi ilə yazıb - yaratdığı şeirlərində milli istiqlal ideyasını bəyan etməkdən çəkinməmişdir. Cənub mövzusunda yazdığı əsərlərdə xüsusilə bu ideya-fikir mükəmməlliyi daha aydın görünür. Sabir Rüstəmxanlının həm lirik duyğularını əks etdirən şeirləri, həm də epik lövhələri ilə yaddaqalan iri həcmli əsərləri Azərbaycan xalqının müstəqilliyə qovuşmaq idealının poetik ifadəsi ilə nə dərəcədə fərqləndiyini və səsləşdiyini göstərir.

Zaman göstərdi ki, Azərbaycan poeziyasının daimi mövzusu olan milli yaddaşın oyanışı müstəqilliyə, suverenliyə çağırışdır, milli həsrətin poetik ifadəsi olmaqla yanaşı həm də milli düşüncəni, azadlıq ideyalarını və vətən sevgisinin ədəbi təcəssümüdür. Bir xalqın tarixinin, varlığının unutdurulması, onun digər xalqın içərisində əridilib yox edilməsi siyasətinə qarşı barışmazlığa səsləyiş, özünüdərkə və özünütəsdiqə cəsarətli çağırış idi.

...Hələ 1970-ci illərdə, yaradıcılığının yüksəlişli dövründə kommunist rejiminin həm ölkədə, həm də beynəlxalq aləmdə tüğyan etdiyi zaman yazdığı "Müstəqillik" şeirində də milli müstəqillik, azadlıq ideyaları diqqəti cəlb edirdi:

*Müstəqillik! İlk inamım, ilk həsrətim,*
*Müstəqillik! Xalqın məslək bayrağıdır.*
*Müstəqillik - hər ölkənin, məmləkətin,*
*Zülm, əsarət orbitindən çıxmağıdır!*

...Ötən əsrin 80-ci illərinin əvvəllərində Moskva altındakı "Peredelkino" yazıçıların yaradıcılıq evində tərcüməçisinə xitabən yazırdı ki: "Məni bir ocağa, kəndə, rayona, Bir dağ arasına, dərə dibinə, Balaca vadiyə, balaca yola, Balaca dünyaya bağlama əsla!" Siyasi xəritələrdə bölünmüş VƏTƏNİN gerçəkliyini, onun qəlbdə və mənəvi dünyada daha böyük olduğunu vurğulayan şair "Tərcüməçimə" şeirində Vətənimizin coğrafi hüdudları ilə yanaşı, onun nüfuz dairəsini doğru, düzgün dərk etməyə səsləyirdi:

*Sən mənim dünyamın üfüqlərini,*
*Axtarma siyasi xəritələrdə!*
*Mən orda bölünmüş,*
*əyalət, azlıq...*
*Kağızın üstündə parça-tikəyəm,*
*Siyasi xəritə - siyasətbazlıq!..*
*Mənim taleyimə kağız biganə,*
*Mən bu bölgülərə üsyan səsiyəm.*
*Mən öz istəyimlə, sözüm, ruhumla,*
*Yurdumun bölünməz xəritəsiyəm!*

Göründüyü kimi, şair bu şeirdə ayrı-ayrı dövlətlərə parçalanan türk dünyasının, o cümlədən ikiyə ayrılan Azərbaycan ziyalısının poetik "məninin" timsalında bölünməzliyini və bu ayrılıqların müvəqqəti olduğunu ifadə edir.

**Nurəddin ƏDİLOĞLU,**
**(Xüsusi olaraq "Təzadlar" üçün)**

# İnsan hüquqları toxunulmazdır, ədalətin əsasıdır...

**Həyatın ən böyük dərsi ondan ibarətdir ki, bəzən axmaqlar da haqlı sayılırlar.**

*Uinston Çörçill*

**...Son vaxtlar müvafiq icra hakimiyyəti orqanları və ya Bələdiyyələrin razılığı əsasında yaşayış üçün özəl mənzillər inşa edib yaşayan, lakin çıxarışı (kupçası) olmayan şəxslərə “Azəriqaz” tərəfindən qaz çəkilişinə məhdudiyyətlərin qoyulması ictimai ikrah və narahatlıqla qarşılanır. 1995-ci il noyabrın 12-də qəbul olunan ölkə Konstitutsiyası Azərbaycan Xalqının çoxəsrlik dövlətçilik ənənələrinə sadiq qalaraq keçmiş, indiki və gələcək nəsillər qarşısında ədalətli, iqtisadi və sosial qaydalara uyğun hamının (bütün Azərbaycan vətəndaşlarının) layiqli həyat səviyyəsinin təmin edilməsini ümumxalq niyyəti kimi bəyan edilir. İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malikdir və bu hüquqlar izahata ehtiyac duyulmadan hamıya şamil edilməlidir. Hər bir insan onun baxışlarından, sosial mənşəyindən, mülkiyyətindən, doğum və başqa hallardan asılı olmayaraq, təmin olunmalı insan haqlarına malikdir.**



Digər məsələ işsiz şəxslərə ünvanlanan sosial yardım ilə bağlıdır. İşdən çıxarılan şəxslər işlədikləri müəssisələr tərəfindən 2-3 aylıq əməkhaqqı həcmində kompensasiya, dövlət tərəfindən də işsizlikdən sığorta ödənişi ala bilərlər. İşdən çıxan və ixtisara düşən şəxslər DOST mərkəzinə müraciət etməklə qeydiyyata alınır və ilkin olaraq 6 ay müddətinə ödənişlə təmin olunurlar. Müddət 9 aya qədər uzadıla bilər. Minimum ödəniş təxminən 400 man məbləğindədir. Himayəsində olan uşaqların sayına görə (hər uşağa 20 man) əlavə ödəniş mümkün hesab edilir. Dost xidmətləri vətəndaşlara ixtisasına və bacarığına uyğun iş tapmaq, vakansiyalar barədə məlumat vermək imkanları da verir. Amma hər iki məsələdə hüquqi və demokratik dövlətin ali məqsədinə zidd olan hüquqi məqamlar var.

Mahiyyət etibarı ilə Azərbaycan Respublikasının Konstitutsiyasında bəyan edilən xalqın niyyətləri, dövlətin 12-ci maddəsində təsbit edilən ali məqsədi ilə üst-üstə düşür. Dövlət üzərinə götürdüyü öz vətəndaşlarının layiqli həyat səviyyəsini təmin etməyi əsas vəzifəsi kimi, heç bir maneə olmadan orqanları vasitəsi ilə yerinə yetirilməlidir.

Diqqət çəkən insan və vətəndaşların hüquq və azadlıqları sırasında Yaşamaq hüququ (27m.), insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi (26m.), Dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir - (26m.), Sosial təminat hüququ (38m), Vətəndaşlıq hüququ (52m.) və.s . 52-ci maddəyə görə yalnız Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olanlar Azərbaycan Respublikasının vətəndaşı sayılır.

Konstitutsiyanın 68-ci maddəsi - özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququna görə hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edir. Həmin maddənin IV hissəsi - Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərkətsizlikləri nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə məsuliyyət daşımasını imperativləşdirir.

## “Bəzən bir çörəyin qiyməti 30 AZN başa gəlir. AYNA-nın tətbiq etdiyi cərimələr sui-istifadədir!”

Konstitutsiyanın 71-ci maddəsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatını hamının diqqətinə görk olaraq çatdırır: Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu kimi vurğulanır. Bu hüquq və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz! 71 ci maddənin VII hissəsində deyilir: İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Bu maddə dövlətin iki vəzifəsini müəyyən edir: Hüquq və azadlıqlara əməl etmək; Hüquq və azadlıqları müdafiə etmək. Yəni, dövlət orqanları qəbul etdiyi qərarlarla vətəndaşların hüquq və azadlıqlarını - qazdan, sudan, işıqdan istifadəni, avtonəqliyyat vasitələrini park etmək hüququnu məhdudlaşdıra bilməz! Vətəndaşların vəziyyəti belə qərarların qəbulu ilə pisləşirsə, Konstitusiyaya zidd sayılmalıdır. Belə məhdudiyyətlər - qadağalar yalnız, məhkəmələrin qanuni qüvvəyə minmiş aktı ilə mümkün ola bilər. (Azəriqaz, Azərsu, Azərişıq, Azparking və.s) qəbul etdiyi normativ-hüquqi aktlarda (kollegiya qərarlarında) və bu normaların tətbiqi zamanı pozula bilməz.

Azərbaycan dövlətinə mənsub olan vətəndaşın dövləti ilə siyasi və hüquqi bağlılığı olduğundan yaşadığı (hətta qanunsuz tikilmiş evdə belə) mənzilində qazdan, işıqdan və sudan istifadəyə avtomobilini park etməyə “məhkumdur”. Dükan və bazarlar, apteklər yol kənarında inşa edilib. Avtomobili park edib, dükana, apteka daxil olub nəyi isə almaq üçün “park pulu” niyə verilməlidir? Bəzən bir çörəyin qiyməti 30 AZN başa gəlir. AYNA-nın tətbiq etdiyi cərimələr sui-istifadədir! Bu onun konstitusion hüququdur. Hakimiyyətin üç qolunun - Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının belə dəyərləri gözləmək və qorumaq borcu sayılırsa, digər mərkəzi icra hakmiyyəti orqanlarının “Ali məqsədi”nə çevirməlidir. Qeyd etdiyim kimi belə mübahisələrə məhkəmələr baxır.

İohan Volfranq Hötenin belə bir fikri diqqətimi çəkir. “Təbiət zarafatı sevmir, o həmişə doğru, həmişə sərt və ciddidir, həmişə haqlıdır. Səhvlər və yanılmalar insanlardan gəlir”. Bu mənada xalqa qarşı səhv etməyək, yanılmayaq, xalq həmişə haqlı və doğrudur, zarafatı sevmir. Ona görə də, hakimiyyətin mənbəyi xalq, onun vahidliyi isə dövlətin təməlini təşkil edir- Konstitutsion müddəanın qarşısında təzim edək!

Sadəlövh məmurların vətəndaşların qazdan, sudan və elektrik enerjisindən istifadəyə imkan verməməsi özbaşınalıqdır (68m.), məsuliyyət yaradır. Hətta insanların və vətəndaşların əsas hüquq və azadlıqları ilə bağlı müddəaların məhdudlaşdırılması barədə təkliflər belə referenduma çıxarıla bilməz, yəni belə bəşəri dəyərlərin dəyişdirilməsinə təkliflərin edilməsi təşəbbüsünü Konstitutsiya məhdudlaşdırır. (Konstitusiyanın 155-ci mad.)Yalnız müharibə və hərbi vəziyyət elan olunduqda hüquq və azadlıqlar qismən məhdudlaşdırıla bilər. Cinayət hüquq qanunvericiliyinin tələbləri çərçivəsində yanaşıldıqda, - fiziki və hüquqi şəxslərin hüquqlarına zidd davranmaq qulluq mənafeyi əleyhinə olan cinayət əməli kimi dəyərləndirmək olar. Azərbaycan Respublikasının Konstitutsiyası ölkədə ən yüksək hüquqi və birbaşa qüvvəyə malikdir. O qanunvericilik sisteminin əsasını təşkil edir. Konstitutsiya “Yüksək hüquqi qüvvəyə malikdir”- ifadəsi onun Azərbaycan Respublikası ərazisində qüvvədə olan digər normativ-hüquqi aktlardan (NK-nin qərarlarından, RİH-nin qəbul etdikləri aktlardan, Azəriqazın, Azərsu, Azparking və Azərenerjinin qəbul etdiyi aktlardan) üstünlüyünü təsdiq edir. Məhz, bu üstün mövqe qanunların və qanunqüvvəli aktların Konstitutsiyaya zidd olmamasını şərtləndirir.

Diqqət çəkən və heç bir normativ hüquqi akta aid olmayan üstün faktor Möhtərəm Prezidentin and içmə mərasimi zamanı Konstitutsiyanın Qurani Kərimlə bir masaya qoyulması onun müqəddəs kitabla bərabər tutulmasını təsdiqləyir, orada Azərbaycan xalqının ruhu, iradə ifadəsi var, - ona görə!

Qeyd etdiklərim Konstitusiyaya uyğun subyektiv şərhim idi. Hamımıza vicdanlı davranış arzusu ilə...

**Şəmsəddin Əliyev, hüquqşünas**



# “Səhnədə məhəbbət” Ağdam Dövlət Dram Teatrının səhnəsində yaşandı

**Uzun illər öncə Azərbaycan Dövlət Musiqili Teatrının repertuarında yer almış tamaşa məhz Ağdamda səhnəyə gətirildi – ona yenidən həyat və yeni ruh verildi. Həm də rejissor və aktyor heyətinin özünəməxsus təqdimatı və peşəkarlığı ilə tamaşanın nümayişi tarixində öz imzasını qoymuş oldu!**





Teatrın cari ilin II rüb repertuar planına əsasən, çağdaş Azərbaycan ədəbiyyatının görkəmli dramaturqu, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, professor Əli Əmirlinin “Səhnədə məhəbbət” adlı əsəri əsasında eksperimental musiqili-komediya janrında səhnələşdirilən tamaşa uğurlu premyeraları ilə yadda qaldı.

Mayın 20-si, 22-si və 23-ü hər bir premyerası anşlaqla keçən tamaşa teatrsevərlərə təqdim olundu.

Ağdam Dövlət Dram Teatrının gənc və istedadlı quruluşçu rejissoru, yazıçı-ssenarist Racu Şıxlının quruluşunda səhnə həllini tapmış tamaşa teatrsevər tamaşaçılar, Ağdam rayon ictimaiyyəti və tələbə-müəllim heyəti tərəfindən yüksək maraqla qarşılanaraq hər kəsin mədəni zövqünə xoş təəssüratlar bəxş etdi.

Bunu tamaşaboyu tamaşaçı alqışından görmək olurdu. Rejissorun psixoloji-realistika və metateatr üslublarında işlədiyi səhnə işi – tamaşa peşəkar aktyor – Afərdə Sabirqızı, Anar Əhməd, Qalib Abdullazadə, Xəyalə Xudadatova, Fərhad Fərhadzadə, Teymur Kərimovun – oyunu ilə də diqqət çəkən idi. Uğurla teatrsevərlərin görüşünə gələn “Səhnədə məhəbbət” tamaşasında peşəkar quruluşçu heyətin də xidmətləri danılmazdır: belə ki, tamaşanın quruluşçu rəssamı Qönçə Həzizadə, işıq rəssamı Anar Şükürov, bəstəkarı Azər Şükürov, səs rejissoru Elşən Cəfərov və rejissor assistenti Xaliq Abdullazadə öz üzərlərinə düşən məsuliyyətin öhdəsindən ustalıqla gəldilər...

Qeyd edək ki, yaxın günlərdə tamaşanın qastrol səfərləri də gözlənilir.

Biz də teatrın yaradıcı heyətinə uğurlar arzulayırıq!

**(Fotoların müəllifi Ədalət Nərimanovdur)**

**JASMİN**





# "Azerbaijan Kids Best Model 2026" – müsabiqəsinin qalibləri taclandırıldı

**Mayın 24-də "Badamdar Residence" Hotelində "Star Kids Group" şirkətinin təşkilatçılığı ilə uşaq moda və gözəllik dünyasının ən möhtəşəm layihəsi olan "Azerbaijan Kids Best Model 2026" müsabiqəsi baş tutdu.**

"Star Kids Group" şirkətinin direktoru Aygün Əliyevanın rəhbərliyi ilə 2735 uşağın seçim turlarına qatıldığı müsabiqənin son mərhələsi – əsrarəngiz mükafatlandırma mərasimi keçirildi.

Müsabiqənin münsiflər heyətinin rəhbəri isə həmişəki kimi, **Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının dosenti, "Fakhriya Khalafova" moda evinin təsisçisi, Azərbaycanın "Moda İkonu" Fəxriyyə Xələfova idi.**

Eyni zamanda, budəfəki müsabiqənin münsiflər heyətində Azərbaycan Sahibkar Qadınlar İctimai Birliyinin sədri Zemfira Ağayeva, müğənnilər – Əməkdar artist Almaz Ələsgərova, Əbdül Xalid, tanınmış aparıcı, aktyor Şəhriyar Əbilov, həmçinin Sərxan Həsənov, Leyla Məmmədova və İlahə Əliyeva kimi məşhur simalar yer almışdılar.

Sənətçilərin ifaları ilə rəng qatdıqları bu unudulmaz tədbirə şoumen, aktyor, müğənni Elməddin Məmmədovun özünəməxsus aparıcılığı – tamaşaçılarla xoş dialoqu, təqdim etdiyi musiqi nömrələri də böyük coşqu və ruh yüksəkliyi gətirmişdi.

Gecədə 4-14 yaş kateqoriyalarında öz istedadları ilə seçilən 76 uşaq model final səhnəsində podiuma qalxaraq öz istedad və bacarıqlarını nümayiş etdirdilər. Onlardan 44-ü qız , 32-si isə oğlan modellərdir.












Finala yüksəlmiş modellərin müxtəlif nominasiyalar üzrə mükafatlandırılması müsabiqənin bir çox kriteriyaları – səhnə yürüşü (Runway Walk), səhnə davranışı və özünə inam, ümumi görünüş, eyni zamanda fərdi stil, poz vermə bacarığı və fotogeniklik, xarizma və səhnə aurası, nəhayət, kreativlik və geyim təqdimatı əsasında aparılırdı.

Qeyd edək ki, bu möhtəşəm gecədə qonaqlar foyedə müxtəlif əl işlərindən ibarət sərgi-satış ilə də tanış oldular.

Münsiflər balları hesabladıqdan sonra nominasiyalar üzrə yer qazanan modellər podiuma dəvət edildilər və Fəxriyyə Xələfova tərəfindən təltifləndilər.

Və nəhayət, 4-14 yaş kateqoriyaları üzrə birinci yerə layiq görülmüş, münsiflərin yekdilliklə səs verdikləri qaliblərin adları açıqlandı.

Beləliklə, müsabiqədə 4-6 yaş kateqoriyası üzrə qızlar arasında **1-ci yerin qalibi 6 nömrəli iştirakçı Alya Məmmədsoy,** 2-ci yerin qalibi Ece Çeray, 3-cü yerin qalibi Jasmin Hüseynzadə;

4-6 yaş kateqoriyası üzrə oğlanlar arasında **1-ci yerin qalibi Ravin Eyvazov,** 2-ci yerin qalibi Mirmehdi Bağırov, 3-cü Bəhruz Ağayev, 3-cü yerin qalibi Rəsul Bayramlı;

10-14 yaş kateqoriyası üzrə qızlar arasında **1-ci yerin qalibi Selin İbrahimli,** 2-ci yerin qalibi Elina Əliyeva, 3-cü yerin qalibi Tərənə Hüseynova; yerin qalibi Merac Məmmədov;

7-9 yaş kateqoriyası üzrə qızlar arasında **1-ci yerin qalibi Jasmin Eyvazova,** 2-ci yerin qalibi Dilək Əlizadə, 3-cü yerin qalibi Aylin Nəzərli;

7-9 yaş kateqoriyası üzrə oğlanlar arasında **1-ci yerin qalibi Ümid Quliyev,** 2-ci yerin qalibi

10-14 yaş kateqoriyası üzrə oğlanlar arasında **1-ci yerin qalibi Malik Hüseynov,** 2-ci yerin qalibi Mirxalis Əzimzadə, 3-cü yerin qalibi Ümid Teymurlu təltif edildilər.

Qaliblərə xüsusi olaraq hazırlanmış taclar təqdim edildi.

**Y.Məmmədli**

# Qobu bələdiyyəsində dövlət siyasətini sabotaj edən kimlərdir?!

**“Təzadlar” qəzetinə vətəndaş Heydərov Məcid İmran oğlunun təmsilçisi (mülki etibarnamə ilə) Haqverdiyev Qoşqar Umud oğlu tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığı müraciətin surəti daxil olub.**

*Məsələnin aktuallığını nəzərə alaraq müraciəti təqdim edirik. Müraciətdə deyilir:*

**“Möhtərəm cənab Prezident!**

Sizin dəfələrlə öz çıxışlarınızda xüsusi olaraq vurğuladığınız kimi, bu gün korrupsiya dövlətimiz üçün ən ciddi təhdiddir və dövlətçiliyimizin əsasları üçün həyati təhlükə daşıyıcısı olan bu qorxunc mərzələ mübarizədə dövlətimizin yanında olmaq, qətiyyət və fəallıq nümayiş etdirmək hər bir vətəndaşın mənəvi borcudur. Təəssüflər olsun ki, bu gün ölkədə böyük vüsətlə həyata keçirilən tədbirlərə rəğmən, hələ də gündəlik həyatımızda törətdikləri əməllərin nə dərəcədə ciddi fəsadlar törədə biləcəyini nəzərə almadan, öz şəxsi mənfəət və ambisiyalarını dövlətin və xalqın milli mənafelərindən üstün tutaraq korrupsiya əməllərinə rəvac verən bəzi məmurların haqsızlıqları ilə üz-üzə gəlirik. Bu kimi hallarda ən təhlükəli məqamlardan biri budur ki, öz vəzifə səlahiyyətlərindən sui-istifadə edən həmin şəxslər birbaşa dövlət siyasətinin əleyhinə çıxaraq ölkəmizdə mövcud olan xalq-dövlət birliyinin əsaslarını sarsıtmağa yönəlmiş əməllər törətməyə çalışırlar. Bu müraciətimdə bu yaxınlarda üzləşdiyim daha bir korrupsiya halı barədə Sizə məlumat vermək istəyirəm. Diqqətinizə çatdırıram ki, rastlaşdığım bu qanuna zidd əməllər heç də istisna hal deyil. Belə ki, Abşeron rayonu üzrə qəsəbə və kənd bələdiyyələrinin destruktiv fəaliyyəti bu gün yüzlərlə ailənin Konstitusiya hüquqlarının pozulması ilə müşahidə olunur.

Vətəndaşlar üçün eyni problemlər yaradan hallardan birinin təfərrüatları bundan ibarətdir ki, təmsil etdiyim Heydərov Məcid İmran oğluna Abşeron rayonu Qobu bələdiyyəsi tərəfindən 01 aprel 2008-ci il tarixli 08 saylı qərar qəbul olunaraq 0,08 ha torpaq sahəsi ayrılmışdır. Təhvil verilmə Qobu bələdiyyəsinin yerquruluşu



planından çıxarışla və cizgi aktı ilə rəsmiləşdirilmişdir. Akta Abşeron rayonu Qobu bələdiyyəsinin o vaxtkı sədri Mübariz Bayramov, Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq-Tikinti Şöbəsinin o vaxtkı müdiri Akif Əliyev, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin o vaxtkı müdiri Mübariz Vəliyev imza atmışlar. Eyni zamanda, Məcid Heydərov tərəfindən bələdiyyə büdcəsinə 29 dekabr 2007-ci il tarixində 500,0 manat torpaq rüsumu və 13 may 2008-ci il tarixində 10,0 manat torpaq vergisi ödənilmişdir. Lakin bir müddət sonra vətəndaş Heydərov Məcid İmran oğlu həmin torpaq sahəsinə “çıxarış” sənədi almaq üçün müraciət edəndə Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən imtina cavabı almışdır. Bundan sonra vətəndaş Sumqayıt inzibati məhkəməsinə müraciət edərək, ona “çıxarış” sənədi verilməsi öhdəliyinin aidiyyəti qurumun üzərinə qoyulması barədə qərar çıxarılmasını xahiş etmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, Qobu bələdiyyəsinin sədri Araz Nəcəfov AR İPM-nin 60-cı maddəsinin tələblərini məqsədli şəkildə pozmuşdur. Maraqlıdır ki, Araz Nəcəfov artıq özü Qobu bələdiyyəsinin sədri olduğu müddət ərzində sözügedən torpaq sahəsində vətəndaş M.Heydərovun hasar bünövrəsi salması, oraya 3 yük maşını daş tökməsi və ərazidə şəxsən mənim tərəfimdən 7 ağac əkildiyi barədə də məlumatlı olub. Ən əsası da Araz Nəcəfov Məcid Heydərova verilən Qobu bələdiyyəsinin yerquruluşu planından çıxarış sənədinə sabiq bələdiyyə üzvü Ə.Əmiraslanovun əvəzinə saxtakarlıq edərək şəxsən özü imza da atıb. Nəhayət, Araz Nəcəfov çıxarış verilməsi üçün tələb olunan sənədləri vətəndaş Məcid Heydərovun səlahiyyətli təmsilçisi kimi, mənə təqdim edərkən həmin sənədlərin qanuni və tam qaydasında olduğunu bildirb və üstəlik məndən 50,0 manat məbləğində torpaq vergisi də alıb. Yalnız DƏDR Xidməti imtina məktubu verdikdən və məsələ məhkəmə araşdırması predmetinə çevrildikdən sonra Bələdiyyə sədri mənə 5 ay davam edən süründürməçiliyin nəhayətində həmin 8 sot torpaq sahəsini almaq üçün aşağı qiyməti 7000 manatdan başlayan hərracda iştirak etməyi təklif edib. Bununla da digər qanunverici aktlarla yanaşı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 fevral 2026-cı il tarixli 43 №-li Qərarının 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarına dəyişikliklər edilməsi barədə tələbləri kobud şəkildə pozulmuşdur.

**Möhtərəm cənab Prezident!**

Artıq 18 ildir ki, sözügedən torpaq sahəsi faktiki olaraq bizim istifadəmizdədir və bu hüququn təmin olunması üçün bütün dövlət ödənişləri tərəfimizdən həyata keçirilmişdir. Lakin Abşeron rayonu Qobu bələdiyyəsinin rəhbərliyi öz şəxsi maraqlarından çıxış edərək, Sizin rəhbərliyinizlə həyata keçirilən Azərbaycanın dövlət siyasətini sabotaj etməyə yönəlmiş qərarlar verir. Nəticədə, nə biz, nə də yüzlərlə digər sakinlər faktiki sahibi olduqları torpaq sahələrinə çıxarış ala bilmirlər. Bu kimi qərarların kütləviliyi onların mahiyyət etibarı ilə xalqı dövlətdən narazı salmaq məqsədini güddüyünü düşünməyə əsas verir. 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü kimi, belə halları dövlət əleyhinə yönəlmiş fəaliyyət kimi qiymətləndirirəm. Bu gün Abşeron bələdiyyələri faktiki olaraq vətəndaşların hüquqlarını öz təsirləri altında saxlayırlar və bu kimi hallara son qoymaq üçün düşünürəm ki, Abşeron rayon bələdiyyələrinin “Dəmir yumruq” əməliyyatına ehtiyac var.

**Möhtərəm cənab Prezident!**

Sizdən artıq dərəcədə xahiş edirəm ki, bütün bu deyilənləri nəzərə alaraq, qeyd etdiyim faktların araşdırılması və günahkar şəxslərin məsuliyyətə cəlb olunması məqsədilə aidiyyəti olan dövlət qurumları tərəfindən müvafiq tədbirlərin görülməsində köməklik göstərəsiniz”.

**Redaksiyadan:** *Müraciətlə əlaqədar qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.*

**E.ŞİRİNOV**

# Türkiyəli iş adamının yalanı ayaq tutdu, amma yeriyə bilmədi...

***...Çünki o, «Bayram Yusifovun 25 milyonluq villasını mebellə təchiz etmişik, pulunu vermir”- deyərkən əvvəlcə bu borcun məbləğini sənədlərlə ortaya qoymalı, sonra danışmalı idi...***




**Türkiyəli iş adamı, Bakıda mebel istehsalı və quraşdırılması ilə məşğul olan N.Köse bir müddətdir ki, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, ictimai xadim Bayram Yusifov haqqında videomüraciət yayaraq ictimai yanlışlıq məhsulu olan yalan xəbərlər istehsalı ilə məşğuldur. Ən pisi odur ki, bəzi elektron media əməkdaşları isə qarşı tərəfin ən azı mövqeyini dinləmədən bu videomüraciətin yayılmasına könül verməməli idilər. N.Köse isə kor tutduğunu buraxmayan kimi, elə hey deyir ki, B.Yusifovun ona külli miqdarda borcu var. Yaxşı, bu «külli miqdarda borc»un məbləği yoxdur?**

***

Beləliklə, türkiyəli iş adamı kimi tanınan N.Köse deyir ki, Bayram Yusifovun Şıxovda yerləşən, guya 25 milyonluq (?) villası üçün «Massimo Group MMC” şirkətindən mebel sifariş edib, şirkətin işçiləri də həmin villadakı otaqları mebellə təchiz edib... Və guya Bayram Yusifov indi pulunu ödəməkdən boyun qaçırır, guya vəzifəsindən istifadə edərək, hər cür bəhanələr gətirir, nəticədə, N.Köse isə 8 aydır pulunu ala bilmir və s.

Gəlirik mətləbə: N.Köse onu da bildirir ki, bu məsələ ilə bağlı məhkəməyə müraciət edib, borcun miqdarının nə qədər olduğunu müəyyənləşdirmək qalır məhkəmənin qərarına.

Məsələ ondadır ki, əgər iş məhkəmə müstəvisindədirsə, əvvəlcədən mediada yanlış informasiyalar yaymaq, Ağsaqqallar Şurasının sədr müavini haqqında mənfi imic formalaşdırmaqla barəsində həqiqəti əks etdirməyən məlumatları yaymaq nə deməkdir, bunda məqsəd nədir? Məhkəməyə, yoxsa borclu dediyi Bayram Yusifova təzyiq göstərmək???

***

“Tezadlar”ın əməkdaşları aydınlaşdırdı ki, tərəflərin arasında görülən xidmətlə bağlı müqavilə də var. Biz media olaraq məsələyə münasibət bildirilməsi üçün türkiyəli iş adamı N.Köse ilə əlaqə saxlamağa lüzum görmədik, çünki onun deyəcəkləri artıq mediada videomüraciət formasında yayılıb... Lakin B.Yusifovun hüquqi nümayəndəsi Akif Əliyevlə əlaqə saxladıq. Həmsöhbətimiz bəzi elektron media orqanlarının qarşı tərəfi dinləmədən, sənədlərlə tanış olmadan, faktiki halları dəqiqləşdirmədən türkiyəli iş adamı kimi özünü təqdim edən N.Kösenin əsassız fikirlərini yaymasını qarşı tərəfin böyük ictimai nüfuzuna ağır zərbə vurulması kimi dəyərləndirdi.

**Sitat:** “...Azərbaycan cəmiyyətində böyük nüfuz və hörmət sahib olan Bayram Yusifovun şəxsiyyətinə yönəlmiş və bəzi KİV-lərdə yayılmış iddialarla bağlı, məsələnin aydınlaşdırılması və həqiqətin üzə çıxarılması məqsədilə tərəfimizdən məhkəməyə müraciət olunmuşdur... Bizim əsas niyyətimiz prosesin yalnız hüquqi müstəvidə, ədalətli, obyektiv və şəffaf şəkildə araşdırılmasıdır. İnanırıq ki, məhkəmə araşdırması nəticəsində bütün həqiqətlər üzə çıxacaq və məsələyə düzgün hüquqi qiymət veriləcək. Bu baxımdan, media subyektlərinin nümayəndələrinin də prosesi izləməsi və baş verənləri olduğu kimi, qərəzsiz şəkildə ictimaiyyətə çatdırması vacibdir. Odur ki, məsələnin hüquqi müstəvidə həlli tapılana qədər birtərəfli qaydada ittiham və iddialara yol verilməməsini rica edirik. Əks halda, Bayram Yusifov kimi böyük ictimai nüfuz sahibinin şəxsiyyətinə və fəaliyyətinə yönəlmiş məlumatları tirajlayan media subyektləri ilə hüquqi dildə danışmaq məcburiyyətində qalmalı olacağıq...”.

Sitatın sonu.

**Təqdim etdi: SƏBUHİ**

# TƏZADLAR

05-06 (2302) 26.05.2026 www.tezadlar.az


# Həftəbecər



Bir saytın yazdığına görə, Aygün Kazımovanın sosial mediada yeni görüntüləri yayılıb. Xəbərdə deyilir ki, o qısa ətəkli, qırmızı libası ilə çoxsaylı bəyənmələr qazanıb.

***P.S. 54 yaşlı bir qadının əzalarını çöldə qoymasının nəyini bəyənirlər, onu başa düşə bilmirəm. Bunu bəyənən o izləyicilərə deyirəm ki, ətiniz tökülsün elə. Aygünün bu halını birinci dəfədir görürsünüz bəyəm?***

***

Xəbər verilir ki, N.Paşinyan "Qarabağ kartı"nı İrəvanda birdəfəlik dəfn edir...

***P.S."Qarabağ kartı"nın çoxdan öldüyünü N.Paşinyan yaxşı bilir. Ona görə də, meyidin ortada qalıb iylənməsini istəmir. Bu səbəbdən də dəfn prosesi 7 iyun seçkilərindən sonra olacaq. Necə deyərlər, Allah lənət eləsin!***

***

...Putinin Çinə səfərinin uğursuz olduğunu bütün dünya mətbuatı yazır. Belə ki, V.Putuni çökməkdən yeganə xilas edə biləcək qaz razılaşmasına Çinin prezidenti Si Sinpin razılıq verməyib.

***P.S.Qaz razılaşmasını qoyaq bir kənara. Nöşün ki, Rusiya iqtisadiyyatı çöksə yaxşıdır. Amma başqa bir məqam bundan daha maraqlıdır. Deməli, hər iki prezidentin şəklinə baxıram və görürəm ki, V.Putinin boyu getdikcə balacalaşır. Deyəsən, V.Putin hiss edir ki, Ukraynada törətdiyi cinayətlərə görə çəzadan qurtara bilməyəcək. Bu səbəbdən də balacalaşıb, aradan çıxmağa hazırlaşır...***

***

Məlumatlara görə, İctimai Televiziya və Radio Yayımları şirkətinin baş direktoru vəzifəsinə sənəd qəbulu başa çatıb. Bu vəzifəyə 11 nəfər iddiaçı sənədlərini Audiovizual Şuraya təqdim edib.

***P.S.Mətbuatda adları açıqlanan 11 nəfərin arasında hazırkı rəhbər Balakişi Qasımovdan (heç o da tanınan jurnalist deyil) başqa heç birinin adı jurnalist və televiziya işçisi kimi cəmiyyətdə tanınmır. Deyirəm, az-çox tanınan fiqurlar İTV-ni ictimaiyyətin televiziyasına şevirə bilmədilər. Bəlkə bu tanınmayan namizədlər özlərini tanıtmaq üçün İTV-ni əsl ictimaiyyətin televiziyasına çevirə bildilər. Nə deyim, vallah, hər şey ola bilər(Son anda məlum oldu ki, köhnə rəhbər B.Qasımov yenə öz yerinə qayıdıb. Deməli, İTV-də yenə köhnə hamam, köhnə tas olacaq)***



Müğənni sayılan Şəbnəm Tovuzlu bir sayta danışarkən belə deyib: "İfalarım bir yana, gözəlliyim də bir çoxuna dərd olub".

***P.S.Şəbnəm xanım, Məşədi Kazımın ruhuna and olsun, ifa və sənət səndən çox uzaqdır. Sponsorun və kompüter texnologiyasının hesabına səhnəyə və efirə çıxıb oxumaq, hələ sənətkar olmaq deyil. Qaldı ki, gözəlliyinin bir çoxuna dərd olmasına, burada da yanlışlığın var. Sənin yığdırılmış süni gözəlliyin, inan ki, sponsordan başqa heç kimə lazım deyil...***

***

Mərhum Fəzail Ağamalının deputat elədiyi qızı Günay Ağamalı sosial şəbəkələrdə bütün növ söyüşlərin və qınaqların ünvanına çevrilib. Özü ehtiyacı olmasa da, uşaq pulu və atasının yüksək deputat maaşı ilə böyüyən Günay xanım təklif edib ki, uşaq pulu verilməsin: "Ailələrə uşaq pulu verilsə, onlar tənbəlləşəcək və heç kim işləməyəcək. Tək ata işləsə bəsdir".

***P.S.Bu, artıq sözün bitdiyi yerdir. Seçicilərinin qayğısına qalmalı olan deputat, əksinə, onların problemlərini daha da artırır. Günay xanımın diqqətinə çatdırıram ki, 1990-cı ildə ölkədə 183 min uşaq doğulmuşdusa, hazırda bu rəqəm 90 min nəfərdir. Deməli, keçən bu 35 il ərzində uşaq doğumu yarıbayarı azalıb. Bəs niyə? Ona görə ki, deputat olan atan və onun həmkarları uşaq pulunun verilməsinin əleyhinə olublar. Məhz bu amil uşaq doğumunun sayını yarıbayarı azaldıb. Bunun da nəticəsində, gələcəkdə, Günay xanım, vətəni qorumağa əsgər və nəsil artırmaq üçünsə ərə verməyə qız tapılmayacaq. Çünki, Günay xanım, hamı sizin tək qayğısız, atanız Fəzail müəllim kimi yüksək deputat maaşı ilə uşaq böyüdə bilmir. Hamını öz arşınızla ölçüb, adınızı biabır etməyin. Vallah ayıbdır! Bu millətə millət vəkilliyi etmək istəyirsinizsə, bir çox həmkarlarınız kimi susun və danışmayın. Günay xanım, siz əvəlcə danışmağı öyrənin, sonra millət vəkili olarsınız.***

***

Müğənni kimi tanınan Nadir Qafarzadə sosial şəbəkələrdə yayılan bəzi paylaşımları tənqid edərək belə deyib: "Sosial şəbəkələr baxımından deyirəm ki, ən abırsız və həyasız insanlar Azərbaycandadır. 1-2 faiz yaxşılardan uzaq.

***P.S.Ay alma yanaqlı, gül dodaqlı, maral gözlü Nadir Qafarzadə, ağdamlılar demiş, "qağa sən düz deyirsən e, amma helə döyül". Nəinki sosial şəbəkələrdə, elə sənin də təmsil olunduğun o şou biznesdə olan abırsız və həyasızlar onlardan dəfələrlə çoxdur. 1-2 faizdən başqa. İndi məni fikir götürüb ki, səviyyəsiz, əttökən danışıqları, olmayan sənəti ilə, professorları belə təhqir etməkdən çəkinməyən, Xocalı faciəsi günündə İsraildə konsert verən Nadir Qafarzadə özünü harada görür? Birincilərin sırasında, yoxsa o 1-2 faizin arasında?***

***

Üçü birində, bəstəkar, müğənni, şairə və hər üçündən alayarımçıq olan Elza Seyidcahan bir sayta qeyri-adiliklərindən danışarkən belə deyib: "Azərbaycan tamaşaçısı mənim qeyri-adiliklərimə hazır deyildi. Amma çox sevinirəm ki, onları əhliləşdirdim".

***P.S. Heyranına şükür, ya rəbbim! Mən neçə illərdir yazıram ki, bu Elza xəstədir, gəlin onu həkimə aparaq, məni eşidən olmadı. Bu da nəticəsi. İndi bütün tamaşaçıları heyvan sayır və onları əhliləşdirdiyini bildirir. Adamın bu yerdə "O olmasın, bu olsun" filmində qoçu Əsgərin Məşədi İbada dediyi sözlər yadına düşür:" Heyvan sənsən və...". Yox, yox, ətövbə mən bunu qətiyyən Elza xanıma şamil eləmirəm. Allah eləməsin! Sadəcə Elza xanım biz tamaşaçıları əhliləşdirilən heyvan yerinə qoyduğu üçün filmdən həmin epizod yadıma düşdü. Amma Elza xanımın müalicə üçün həkimə getməyi vacibdir. Çünki ağlı başında olan insan deməz ki, tamaşaçıları əhliləşdirdim. Hər-halda Elza xanım psixioloji dispanserdə bir neçə kurs müalicə alsa, yaxşı olardı. Yoxsa bizi heyvan adlandırıb, ağzımızı tikməkdə davam edəcək...***



***

Xəbər verilir ki, Kreml İrəvana konkret seçim verib: ya biz, ya Avropa...

***P.S. Bu bədbəxt ermənilər 200 ildir işıq gələn tərəfə, Rusiyaya gediblər və nəticə də göz önündədir: Yaxın qonşuları Türkiyə və Azərbaycanla düşmən ölkədə işsizlik, aclıq, səfalət, əhalinin yarısı xarici ölkələrə üz tutub, dövlətçiliyini itirilməsi təhlükəsi və s. İndi imkan verin bir az da it hürən tərəfə, Avropa Birliyinə getsinlər. Bəlkə bununla dövlətçiliklərini qoruyub saxlaya bildilər.***




ELÇİN
elcinmemmedli
58@gmail.com



Baş redaktor:
Asif Mərzili

Redaksiya heyəti:
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Şərahil Hüseynoğlu

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
Daxili: 7-23, 2-32, 4-98
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır. Qəzetdə "Olaylar" İA, "Media forum", "Azadlıq radiosu" və RATİ materiallarına istinad olunur.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1800
Çapa imzalanmışdır: 25.05.2026